www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-10 iyun 2025-ci il Cümə № 98 (8708) Qiymıəti 60 qəpik

**Qurban bayramız mübarək!**

## Gündəm

### NATO ilə treninq kimlərin yuxusunu qaçırdı?



İnternetin Rusiya seqmentində əcaib reaksiyalar

yazısı səh.6-da

### "Rosselxoznadzor" Azərbaycana qarşı

yazısı səh.6-da

### Hindistanın Bakını "güllə atmadan yıxmaq" yuxusu

yazısı səh.7-də

### İki naxçıvanlı deputatın Əshabi-Kəhf mübahisəsi

yazısı səh.3-də

### Fransa Ermənistanda yeni mövqe qazanmağa çalışır

yazısı səh.7-də

### Zori Balayanı şilləyən Milli Qəhrəmanın məzarı bərpa edildi

yazısı səh.3-də

### Ölkəmizdə ömür qısalır - dünya üzrə 166-cı yerimiz

yazısı səh.10-da

### Yeni təyin olunmuş hakimlər and içdilər

yazısı səh.3-də

### "Qırmızı attestat"- sovetdənqalma təltif, yoxsa...

yazısı səh.11-də

### Sənədsiz evlərlə bağlı proses başlayır

yazısı səh.12-də

### Adam öldürən qazi ilə bağlı yeni təfərrüat

yazısı səh.13-də

### Şəkidə vəzifəli şəxsə elektron qolbaq taxıldı

yazısı səh.13-də

# AZƏRBAYCANIN AES TİKMƏK QƏRARI - YENİ GƏLİŞMƏ

Ölkəmizin nüvə enerjisindən istifadəsi gündəmə gəlib, siyasi qərar gözlənilir; bu layihənin reallaşmasında bizə hansı dövlətlər kömək edə bilər?

yazısı səh.5-də



# Qərb MDB-nin dağılmasını istəyir

**ABŞ kəşfiyyatı:** "Moskva bu təşkilat vasitəsilə postsovet məkanına nəzarət edə bilir"

yazısı səh.4-də



### "907-ci düzəliş" Trampın masasında

yazısı səh.8-də



### Paşinyan müxalifətə keçə bilər - İrəvanda hazırlıq

yazısı səh.9-da



### "Şərurlu İsfəndiyar" la bağlı məhkəmə qərarı

yazısı səh.13-də



## Prezidentdən Qurban bayramı təbriki

**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb.**

Təbrikdə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir.

Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!"



## Hökumə Əliyevanın ailə üzvləri Aktauya gedəcəklər

**Hökumə Əliyevanın təyyarə qəzasında həlak olduğu Qazaxıstanın Aktau şəhəri yaxınlığındakı ərazini ziyarət etmək istəyirik. Ziyarətlə bağlı heç bir quruma müraciət etməmişik. Bunu öz imkanlarımız hesabına reallaşdıracağıq".**

Bu sözləri "Teleqraf"a Milli Qəhrəman Hökumə Əliyevanın qardaşı Coşqun Nəsibli deyib. Hadisə baş verən gündən indiyədək sözügedən əraziyə getmədiklərini söyləyən C.Nəsibli deyib: "Ziyarət tariximiz hələ ki bilinmir. Onu deyə bilərəm ki, ilk fürsətdə həmin əraziyə gedəcəyik. Bunu planlaşdırırıq. Ziyarətdə yalnız Hökumənin yaxınları, ailə üzvləri iştirak edəcəklər".

Xatırladaq ki, Hökumə Əliyeva ötən il dekabrın 25-də Bakdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olub. Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə o, "Azərbaycanın Milli Qəhrəmanı" adına və "Qızıl Ulduz" medalına layiq görülüb.



## Azərbaycanla Pakistan arasında saziş təsdiqləndi

**Azərbaycan və Pakistan arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq Sazişi təsdiqlənib. Bununla bağlı qanunu Prezident İlham Əliyev imzalayıb. Qanunla 2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilib.**

# "Elə etmək istəyirik ki, "Rusiya evi" bağlanmasın"




**"Rusiya Azərbaycan tərəfi ilə əlaqə saxlayır və "Rusiya evi"nin bağlanması ilə bağlı problemi həll etməyə çalışır".**

Bunu xarici işlər nazirinin müavini Mixail Qaluzin "İzvestiya"ya bildirib. "Biz məsələni elə həll etmək istəyirik ki, "Rusiya evi" bağlanmasın. Biz Azərbaycan tərəfi ilə əlaqə saxlayaraq bu mövzu üzərində işləyirik. Biz ondan çıxış edirik ki, bu məsələ Rusiya ilə Azərbaycan arasında müttəfiqlik əməkdaşlığı çərçivəsində həll oluna bilər və həll edilməlidir.

Biz hesab edirik ki, bu cür məsələlərə belə yanaşmaq lazımdır və mümkün olan hər şeyi etmək lazımdır ki, dövlətlərimizin vətəndaşları bir-birinin mədəniyyəti və müvafiq strukturları vasitəsilə bir-birinin adət və ənənələri ilə tanış ola bilsinlər", - deyə o bildirib.

2025-ci il fevralın 3-də rəsmi Bakı "Rusiya evi"nin fəaliyyətinin dayandırılması ilə bağlı Moskvaya nota göndərib.




## "Qarabağ" klubu Avropaya gedir

**"Qarabağ" klubu Avstriyada təlim-məşq toplanışında olacaq.**

Bu barədə Ağdam təmsilçisinin mətbuat katibi Anar Hacıyev məlumat verib. Onun sözlərinə görə, hazırlıq prosesi iki mərhələdən ibarət olacaq: "İyunun 18-dək iyulun 2-dək Bakıda toplanış keçəcəyik. İyulun 16-dək isə yeni mövsümə Avstriyada hazırlaşacağıq. Yoxlama oyunlarındakı rəqiblər hələlik tam dəqiqləşməyib".

Qeyd edək ki, "Qarabağ"ın UEFA Çempionlar Liqasının II təsnifat mərhələsindəki rəqibi iyunun 18-də müəyyənləşəcək. Bu raundun ilk matçları 22-23 iyul, cavab qarşılaşmaları 29-30 iyulda gerçəkləşəcək.



## Naxçıvanda "Sarsılmaz Qardaşlıq" təlimi

**Naxçıvanda Türkiyə-Azərbaycan "Sarsılmaz Qardaşlıq" təlimi keçiriləcək. Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb. "12-19 iyun tarixləri arasında Naxçıvan Muxtar Respublikasında Türkiyə və Azərbaycan Silahlı Qüvvələrinin iştirakı ilə "Sarsılmaz Qardaşlıq" adlı kompüter dəstəkli komanda-qərargah təlimi keçiriləcək", - məlumatda deyilir.**

## Dağıstan Azərbaycanla hava əlaqəsinin bərpasına ümid edir



**Dağıstan Azərbaycanla müntəzəm hava əlaqəsinin bərpası ilə bağlı danışıqlar aparır. "Report" xəbər verir ki, bu barədə Dağıstan hökumətinin sədri Abdulmuslim Abdulmuslimov "RİA Novosti"yə bildirib.**

"Azərbaycanla müntəzəm hava əlaqəsinin bərpası ilə bağlı danışıqlar aparılır. Gürcüstan və İranla birbaşa hava əlaqəsinin təşkili imkanı araşdırılır", - o qeyd edib.

Xatırladaq ki, Azərbaycanla Dağıstan arasında birbaşa uçuşlar 2024-cü il dekabrın 25-də "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) Bakı-Qroznı marşrutu üzrə uçuş həyata keçirən "Embraer 190" tipli təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasından sonra dayandırılıb. İlkin məlumatlara görə, təyyarə Rusiyanın Qroznı üzərindəki hava məkanında fiziki və texniki xarici təsir nəticəsində qəzaya uğrayıb.

## Bayramda hava necə olacaq?



**Qurban bayramı günü, iyunun 6-da gözlənilən hava şəraiti haqqında proqnoz açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.**

Bildirilib ki, Bakıda və Abşeron yarımadasında iyunun 6-da hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində fasilələrlə yağış yağacağı gözlənilir.

Yarımadanın bəzi yerlərində yağıntının qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 18-21°, gündüz 25-28° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu olacaq. Nisbi rütubət 50-60% olacaq.

## Mərkəzi Bankın valyuta satışları 5,6% azalıb

**2024-cü ildə xarici pul və istiqraz bazarlarında mövcud əlverişli mühit və nisbi gəlirliliyin artırılması istiqamətində tətbiq edilən portfel strategiyaları nəticəsində Mərkəzi Bankın valyuta aktivlərinin idarə edilməsindən rekord məbləğdə 491.6 milyon ABŞ dolları gəlir əldə edilib. "Teleqraf" xəbər verir ki, investisiya portfelinin gəlirliliyi isə 4.5% təşkil edib.**

Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları hesabat ili ərzində əsasən daxili bazarda valyuta satışları və məzənnə fərqi hesabına 653.5 milyon ABŞ dolları və ya 5.6% azalaraq 2024-cü ilin sonuna 10.96 milyard ABŞ dolları olub.

## Beş ayda 8 mindən çox piyada cərimələnib

**Ötən il paytaxt ərazisində qaydalara əməl etməyən 13 min 615 piyada barəsində inzibati xəta haqqında protokol tərtib edilib. Bu barədə Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən bildirilib. Bu ilin 5 ayı ərzində isə 8 min 713 piyada məsuliyyətə cəlb olunub.**

NİİM-in piyadalara müraciətində qeyd olunub ki, piyadaların öz hüquqları olduğu kimi, vəzifələri də var: "Hüquqlarından istifadə edən piyadalar, vəzifələrini də icra etməlidirlər. Qaydalara əməl edərək özünüzlə yanaşı, sürücüləri də təhlükə ilə üz-üzə qoymaya bilərsiniz".

## Bakıda ər arvadını bıçaqladı

**Bakıda ər mübahisə zamanı arvadını bıçaqlayıb. APA xəbər verir ki, hadisə Nizami rayonunda baş verib.**

Belə ki, 1993-cü il təvəllüdlü Rahim Səfərovla faktiki nikahda olduğu Mehriban Abbaszadə arasında şəxsi münasibətlərin pozulması zəminində münaqişə yaşanıb. O, mətbəx bıçağı ilə Mehriban Abbaszadənin döş qəfəsi nahiyəsindən qəsdən bir dəfə vurub. Faktla bağlı cinayət işi cinayət işi başlanılıb, Rahim Səfərov şübhəli şəxs qismində tutulub.

## İrandan narkotik gətirildi, qarşısı alındı

**Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunları Komandanlığının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində İrandan Azərbaycan istiqamətinə dövlət sərhədinin pozulması halının qarşısı alınıb. Bu barədə DSX məlumat yayıb.**

Bildirilib ki, keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində xidməti ərazidən ümumi çəkisi 9 kiloqram 376 qram narkotik vasitə marixuana və 560 ədəd narkotik tərkibli metadon M-40 həbi aşkar olunaraq götürülüb.

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# İki naxçıvanlı deputatın Əshabi-Kəhf mübahisəsi

## Kənan Rövşənoğlu: "Həm Hüseyn Cavidi, həm də Əshabi-Kəhfi ziyarət etmək olar, bunlar bir-birinə manеə deyil"

**"Böyük Hüseyn Cavidin ev muzeyini və məqbərəsini ziyarət etdim. Dostlarımız Əshabi-Kəhfə və Mömünə Xatun məqbərəsinə getdilər. Söylədim ki, mən maarif, tərəqqi, aydınlanma məkanı olmayan yerlərdən hansısa enerji ala bilmirəm. Eyvallah, siz ölülərin yanına, mən də ölüləri dirildənlərin yanına!"**

Bu sözləri deputat, əslən Naxçıvandan olan Fazil Mustafa qeyd edib. "Məncə, Naxçıvanda öncəlikli üç mütərəqqi ziyarət məkanı var: Hüseyn Cavidin evi və məqbərəsi, Ordubadi adına Mərkəzi Kitabxana və Naxçıvan Dövlət Dram Teatrı və qarşısındakı böyük Mirzə Cəlilin əzəmətli heykəli", - o bildirib.

Qeyd edək ki, Naxçıvandan olan digər deputat Qüdrət Həsənquliyev Azərbaycanda yeni Kəbənin yaradılması təklif etmişdi. O, partiyanın mətbuat xidmətinin suallarını cavablandırarkən deyib ki, Naxçıvanda yerləşən Əshabi-Kəhfdə Məkkədəki Kəbənin - İslamın ən mühüm məscidinin (Allahın evinin) eynisini tikə bilərik. Lakin həmkarı F.Mustafa Əshab-Kəhfi maarifdən, tərəqqidən kənar yer adlandırıb.

Deputatın bu yanaşmasını belə qəbul etmək olarmı?

Qeyd edək ki, deputat Fazil Mustafanın fikirləri sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. Bəziləri bu yanaşmanı maarifçi və rasional düşüncənin ifadəsi kimi müdafiə edib. Qeyd olunur ki, onun yanaşması maarifçilik fəlsəfəsinə əsaslanır, yəni xalqın irəli getməsi üçün öncə düşüncə azadlığı, ədəbiyyat, elm və teatr kimi sahələrə söykənmək gərəkdir. Deputat üçün diriltmək - cismi deyil, fikri, ideyanı, düşüncəni diriltməkdir.

Digər qisim bunu dini dəyərlərə, tarixi şəxsiyyətlərə və xalq yaddaşına saygısızlıq kimi dəyərləndirib.

Bəs Əshabi-Kəhf, onun tarixi və dini önəmi nədir?

Xatırladaq ki, Əshabi-Kəhf ziyarətgahı Naxçıvanın Culfa rayonunda yerləşir və Qurani-Kərimdə adıçəkilən "Yeddi Yatanlar" əfsanəsi ilə əlaqələndirilir. Bu əfsanəyə görə, bir qrup gənc Allah yolunda dini təqibdən qaçaraq mağarada uzun illər yuxuya gedir və oyananda cəmiyyətin dəyişdiyini görürlər. Əshabi-Kəhf bu baxımdan həm İslam, həm də xristian ənənəsində müqəddəs sayılan yerlərdəndir. Azərbaycanda bu yerin lokalizasiyası da Naxçıvandakı mağaraya əsaslanaraq formalaşıb.



Ziyarətgah hazırda həm dini, həm də turistik məqsədlərlə ziyarət olunur. Hər il minlərlə insan buraya gəlir, dua edir və mənəvi arınma axtarır. Dövlət tərəfindən abadlaşdırılan bu məkan Prezident İlham Əliyevin səfərləri çərçivəsində də ziyarət olunub.

**Dini mövzular üzrə ekspert Kənan Rövşənoğlu mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb**: "Deputat Qüdrət Həsənquliyevin Əshabi Kəhf haqqında dedikləri İslam dini ilə uyğun gəlmir. Çünki Məkkə Quranda adı sabitlənmiş, müsəlmanlar üçün müqəddəs məkandır. Hər hansı başqa yer nə inşa etsən belə Məkkəni əvəz edə bilməz. Bu aydındır.

O ki qaldı Əshabi-Kəhf barədə Fazil Mustafanın dediklərinə, bölücü yanaşmadır. Əshabi-Kəhf axı Hüseyn Cavidə, ya da kitabxanaya qarşı deyil. Üstəlik, ölülər yeri də deyil, əksinə, simvolik olaraq da diriləri əks etdirir, Qurana görə oradakı insanlar dövrün zalım hakimiyyətindən qaçaraq mağarada gizlənmiş insanlardır, Allah onları qoruyur və 300 ildən artıq orada qalırlar. Yəni əslində dirilərin məkanıdır Əshabi-Kəhf, həqiqi mənada dirilərin. Yəni Naxçıvana gedib həm dram teatrını, həm Cavidi, həm Mirzə Cəlili, həm də Əshabi-Kəhfi ziyarət etmək olar. Bunlar bir-birinə manеə deyil. Hüseyn Cavid həm böyük maarifpərvər, həm də dini dəyərlərə bağlı insan olub. Yəni normal olaraq biri o birinə mane olmamalıdır".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Yeni təyin olunmuş hakimlər and içdilər

**İyunun 5-də Ali Məhkəmənin Plenumunun növbəti iclası keçirilib.**

İclasda Prezident İlham Əliyevin 2025-ci il 3 iyun tarixli Sərəncamı ilə bir sıra birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunan 38 hakimin andiçmə mərasimi olub.

Ali Məhkəmənin sədri İnam Kərimov yeni təyin olunmuş hakimləri təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bildirilib ki, yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesi davamlı xarakter alıb. Ötən dövrdə 2500-dən çox hakimliyə namizəd imtahanlarda iştirak edib, müsabiqənin bütün



mərhələlərini, eləcə də tədris kursunu və məhkəmələrdə stajkeçməni müvəffəqiyyətlə başa vurmuş 254 nəfər hakimliyə namizəd ölkə Prezidentinin Sərəncamı ilə müxtəlif birinci instansiya məhkəmələrinə hakim vəzifələrinə təyin ediliblər. 109 namizəd isə hazırda seçim prosesinin müxtəlif mərhələsindədir. Hakimliyə namizədlərin sənəd qəbulu hazırda davam etdirilir.

Sədr məhkəmə hakimiyyətinin nüfuzunun artırılması istiqamətində görülmüş işlərdən danışıb, yeni hakimlərə şərəfli hakim adını hər zaman uca tutmağı, ədalətli, vicdanlı və məsuliyyətli olmağı tövsiyə edib.

Sonra hakimlər növbə ilə andiçmə üçün kürsüyə dəvət olunub. Onlar "Məhkəmələr və hakimlər haqqında" Qanunun tələbinə əsasən ədalət mühakiməsini Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tam uyğun olaraq, qərəzsiz, ədalətlə həyata keçirəcəyinə, hakimin müstəqilliyini və ləyaqətini qoruyub saxlayacağına, yüksək hakim adına hörmət ruhunda davranacaqlarına and içiblər.

Hakim vəzifələrinə yeni təyin olunmuş şəxslərə hakimin xüsusi geyim forması və xidməti vəsiqə təqdim olunub.

Daha sonra yeni təyin olunmuş hakimlər Gülşən Fərəcova və Kamal Babayev çıxış edərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına və ədalət mühakiməsinin prinsiplərinə dönmədən əməl edəcəklərinə söz veriblər.

# Ermənistanın vurduğu ziyan üzrə sənədlərin tədqiqinə başlanıldı

**Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində Ermənistan Respublikası tərəfindən həyata keçirilmiş təcavüzkar müharibənin gedişində Azərbaycan Respublikasının ekologiyasına və iqtisadiyyatına qəsdən ziyan vurulması faktları üzrə sənədlərin tədqiqinə başlanılıb.**

Azərbaycanın işğal altında olan əraziləri işğaldan azad edildikdən sonra həmin ərazilərə baxışlar keçirilib, baxış zamanı hər bir rayon və kənd üzrə vurulmuş ziyan müəyyən olunub.

Tədqiq edilən sənədlərlə Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı, Ağdam, Xocavənd, Şuşa, Tərtər, Laçın, Kəlbəcər rayonlarında və həmin rayonların kəndlərində təbiətə və iqtisadiyyata vurulmuş zərərlər sadalanıb. Bu zərərlər sırasına həm ağacların məhv edilməsi, həm də faydalı qazıntı yataqlarının qanunsuz istismarı daxildir.



Nümayiş etdirilən fotolarla ağacların təbii şəkildə deyil, qəsdən məhv olunması sübut edilib.

Məhkəmədə vaxtilə işğal altında olan rayonlarda faydalı qazıntı yataqlarının, o cümlədən xammal və filiz yataqlarının qanunsuz istismarına dair kosmosdan çəkilmiş görüntülər də nümayiş etdirilib.

Bildirilib ki, talan nəticəsində əldə edilmiş gəlir və ya digər maddi sərvətlər Ermənistan ordusu tərəfindən formalaşdırılmış silahlı dəstələrin, xarici ölkələrdən gətirilən muzdluların maliyyələşdirilməsinə, onların müxtəlif növ silah, geyim, ərzaq və digər zəruri ehtiyaclarının təmin olunmasına, cinayətkar birliklərə daxil olan silahlı birləşmələrin döyüş qabiliyyətinin artırılmasına yönəldilib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Zori Balayanı şilləhləyən Milli Qəhrəmanın məzarı bərpa edildi




**Azərbaycanın Milli Qəhrəmanı Vüqar Hüseynovun Cəbrayıl rayonunun Daşkəsən kəndində dağıdılmış məzarı bərpa olunub.**

Modern.az-ın məlumatına görə, 1993-cü ildə Cəbrayıl rayonunun işğal olunması ilə Milli Qəhrəmanın məzarı da düşmən əsarətində qalmışdı. Ermənilər Vüqar Hüseynovun işğal altındakı Daşkəsən kəndində yerləşən məzarını dağıtmaqla öz hesablarınca, ondan qisas almışdılar.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Cəbrayıl rayonunun düşməndən azad edilməsi ilə Milli Qəhrəmanın məzarı da erməni əsarətindən qurtardı.

Vüqar Tofiq oğlu Hüseynov 20 iyun 1969-cu ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya gəlib. 1986-cı ildə orta məktəbi bitirib. Sonra Bakıda 14 saylı texniki-peşə məktəbində təhsilini davam etdirib, elektrik qaynaqçısı ixtisasına yiyələnib. 1987-ci ildə hərbi xidmətə çağırılıb və Daxili Qoşunlarda xidmət edib.

1989-cu ildə hərbi xidməti başa vuraraq, Binəqədi Neft və Qazçıxarma İdarəsində elektrik qaynaqçısı kimi əmək fəaliyyətinə başlayıb.

80-ci illərin sonlarında erməni qəsbkarlarının Qarabağda törətdikləri qatı cinayətlərə dözə bilməyən V.Hüseynov 1990-cı ilin oktyabrında könüllü olaraq Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı polis dəstəsinə yazılıb.

Vüqar Xocalıda, Çaykənddə erməni quldurlarına qarşı rəşadətlə vuruşub, Goranboy rayonunun bir sıra kəndlərinin erməni işğalçılarından azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərib.

Şəhid jurnalist Salatın Əsgərovanın qatillərinin tapılmasında onun da xidməti olmuşdu.

Döyüş yoldaşlarının dediyinə görə, Vüqar Hüseynov 1991-ci ildə Xocalı hava limanında erməni separatçılarının məşhur ideoloqu (sonradan Xocalı qatillərindən birinə çevrilən) Zori Balayanı şilləhləyərək Azərbaycandan çıxıb getməyi tələb etmişdi.

1991-ci il iyulun 20-də ermənilər böyük qüvvə ilə Goranboy rayonunun Buzluq kəndinə hücuma keçəndə, düşməni qarşılayan igidlərimiz sırasında Vüqar Hüseynov da olub. O və döyüş yoldaşları sinəsini sipər edərək düşməni geri çəkilməyə məcbur ediblər. Bu, Vüqarın son döyüşü idi...

O, Buzluq kəndindəki savaşda qəhrəmancasına şəhid olmuşdu. Ölümündən sonra cəsur döyüşçü "Qırmızı Ulduz" ordeni ilə təltif edilib.

Prezidentin 6 iyun 1992-ci il tarixli fərmanı ilə Vüqar Hüseynova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Milli Qəhrəman subay idi.

Doğulduğu Daşkəsən kəndində dəfn edilən V.Hüseynovun adı oxuduğu kənd məktəbinə verilmişdi.

Yeni MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# Qərb MDB-nin dağılmasını istəyir - Kremldən yeni plan

## Rusiya doğrudanmı bu təşkilat vasitəsilə postsovet məkanına nəzarət edə bilir? - iki çarpaz mövqe

**İyunun 5-də Tacikistanın paytaxtı Düşənbədə Müstəqil Dövlətlər Birliyinin (MDB) Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib. Ənənəvi olaraq, əvvəl məhdud tərkibdə iqtisadi əməkdaşlığın aktual mövzuları ətrafında fikir mübadiləsi aparılıb.**

Geniş tərkibdə “Ağır maşınqayırma sənayesinin inkişafı sahəsində əməkdaşlıq haqqında” Saziş layihələrinin, Yüngül sənaye sahəsində əməkdaşlığın inkişafı Konsepsiyasının və onun həyata keçirilməsinə dair Tədbirlər Planının, MDB-yə üzv dövlətlərin Milli Hava Hərəkətinin İdarə Edilməsi Sistemlərinin Uyğunlaşdırılması Konsepsiyasının müzakirəsi olub.



Bundan əlavə, səhiyyə, regionlararası və transsərhəd əməkdaşlıq, müdafiə və təhlükəsizlik sahələrində qarşılıqlı fəaliyyəti tənzimləyən bir sıra müzakirələr olub. İclasda Azərbaycanı baş nazir Əli Əsədov təmsil edib.

Qeyd edək ki, ABŞ Hərbi Kəşfiyyat Agentliyi bugünlərdə Rusiyanın Mərkəzi Asiyada və Cənubi Qafqaz regionunda artan təsirindən narahatlığını ifadə edən hesabat yayıb. ABŞ hərbi kəşfiyyatının hesabatında həmçinin qeyd olunurdu ki, Rusiya Mərkəzi Asiyada ənənəvi təsir rıçaqlarını saxlayır. Moskvanın region dövlətləri ilə dərin tarixi, iqtisadi, siyasi, hərbi və mədəni əlaqələri Mərkəzi Asiyada davamlı mövcudluğunu saxlamağa imkan verir. Rusiya Mərkəzi Asiya təhlükəsizliyinə özünün ayrılmaz hissəsi kimi baxır. Hesabatda qeyd olunurdu ki, Rusiya bu ölkələrə, regionun təhlükəsizliyinə və infrastrukturasına nəzarət etmək üçün təkcə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) deyil, həm də MDB-dən istifadə edir.

Aydındır ki, MDB çoxdan formal quruma çevrilib, amma Rusiya əsas moderator kimi qurumun saxlanılmasında, Qərb isə əksinə, dağılmasında maraqlıdır. ABŞ kəşfiyyatının son hesabatında da MDB-nin rolunun qabardılması təsadüfi deyil.

Keçmiş SSRİ ölkələrinin əksəriyyətinin birləşdiyi dövlətlərarası birlik 1991-ci ilin 8 dekabrında yaradılıb. 1991-ci ilin bu günündə qurulan MDB-yə ilkin dövrdə 3 dövlət-Rusiya, Ukrayna, Belarus daxil idi. Bu dövlətlər SSRİ-nin dağılmasının (faktiki olaraq 25 dekabr 1991-ci il Qorbaçovun istefasından sonra dağıldı) labüdlüyünü anlayaraq, öz aralarında sonralar siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək üçün Müstəqil Dövlətlər Birliyini təşkil etdilər. MDB həm də SSRİ-nin “mədəni dağılması” bəyan etmək, onun mülklərini keçmiş İttifaq ölkələri arasında paylaşdırmaq üçün təşkil edilmişdi.

Daha sonra Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan 21 dekabr 1991-ci il tarixində Almatıda Rusiya, Ukrayna və Belarusla birlikdə MDB-yə qoşulmaq haqqında razılığa gəldilər. Azərbaycan parlamenti bu qərarı yalnız 1993-cü ilin 24 sentyabrında ratifikasiya etdi və MDB-nin tam hüquqlu üzvü oldu.

1993-cü ilin oktyabrında MDB-yə üzv qəbul edilən Gürcüstan 2008-ci ilin avqust ayında Rusiya ordusunun Gürcüstana daxil olmasından sonra həmin qurumun üzvlüyündən çıxdı. Türkmənistan 2005-ci ildən MDB-də müşahidəçi kimi fəaliyyət göstərir. Ukrayna 2014-cü ilin mart ayında Rusiya ordusunun Krıma daxil olmasından sonra həmin qurumun üzvlüyündən çıxdı. Hazırda MDB-də 8-i nizamnamə, 69-u sahəvi əməkdaşlıq orqanları və 15-i digər qurumlar olmaqla, ümumilikdə 90-dan çox orqan fəaliyyət göstərir.

Bəs Rusiya MDB-ni nəzarət mexanizmi kimi nə qədər saxlaya biləcək? Bu təşkilatın təsiredici rolu qalıbmı? Moskva doğrudanmı MDB vasitəsilə postsovet məkanına nəzarəti təmin edə bilir?

**Hüquqşünas Qulamhüseyn Əlibəyli “Yeni Müsavat”a bildirib ki, MDB formal mövcuddur:** “Onlar yığışırlar, iclaslar keçirirlər, amma bu qurum Rusiya üçün keçmiş sovet ölkələrinə nəzarət məkanına çevrilə bilmədi. Əlbəttə, Kreml çox istərdi ki, MDB vasitəsilə buna nail olsun, amma alınmadı. İndi başqa təhdidlər, vasitələr nəzərdən keçirilir. Yeni "SSRİ-2" modeli haqda fikirləşirlər. Çünki Ukrayna, Gürcüstan, Moldova MDB-də iştirak etmir, Orta Asiya ölkələri təşkilatın qarşısına qoyduğu məqsədləri həyata keçirməkdən uzaqdır, ona görə Rusiya gələcəkdə başqa gülməli ssenarilər haqda baş sındırmalıdır".

**Q.Əlibəyli vurğulayıb ki, MDB-nin dağılması üçün ölkələr üzvlükdən çıxmalıdırlar, saziş qüvvədən düşməlidir, de-yure ləğv olunmalıdır:** “Bu da gələcəkdə mümkündür. Onsuz da MDB perspektivi olmayan bir platformadır. Düşünmürəm ki, qarşıdakı dövrdə MDB yenidən aktiv bir təşkilat kimi fəaliyyətini gücləndirə bilsin. Üstəlik, digər dövlətlər də bu təşkilatın fəallığında maraqlı görünmür. Eyni zamanda Türk Dövlətləri Təşkilatı yaranıb, Mərkəzi Asiya ölkələri bu platformaya daha çox meyl göstərirlər. O baxımdan da MDB Rusiya üçün var, fəaliyyəti isə formal xarakter daşıyır”.

**Professor Qabil Hüseynli isə MDB-nin de-fakto dağıldığını zənn edir. Onun sözlərinə görə, Ukrayna böhranı geopolitik reallıqları dəyişib və bu birliyi əhəmiyyətsiz edib:** “Buna qədər də MDB ciddi bir fəaliyyəti ilə nəzərə çarpmırdı. Son zamanlar isə Rusiya lideri MDB dövlət başçılarını Yeni il ərəfəsində Moskvaya toplayır, siyasi birlik nümayiş etdirməyə çalışırdı. Sonuncu belə toplantı isə Kreml liderinin istədiyi kimi olmadı. Çünki həmin gün təyyarəmiz vurulduğu üçün dövlət başçısı İlham Əliyev bu facaiə ilə bağlı dərhal geri qayıtdı, elə aeroportda müşavirə keçirdi. Halbuki Sankt-Peterburqda keçiriləcək ənənəvi qeyri-rəsmi zirvə toplantısına yola düşmüşdü. Həmçinin Ermənistanın baş naziri koronavirusa yoluxduğunu bildirərək sammitdə iştirak etməmişdi. Bu da Rusiya prezidentinin tədbirinin sönük keçməsinə səbəb olmuşdu. Odur ki, MDB mənasız bir təşkilata çevrilməkdədir”.

**Q.Hüseynlinin qənaətinə görə, hər iki Cənubi Qafqaz ölkəsi MDB platformasında görünməyə həvəsli deyil, sadəcə, Rusiyanın həssaslığından irəli gələrək bu tədbirlərdə iştirak olunur:** “Eləcə də türkdilli ölkələrin də bu quruma marağı qalmayıb. Əslində MDB yoxdur, Rusiya onu yaşatmaq üçün dəridən-qabıqdan çıxır. Artıq yeni əməkdaşlıq təşkilatları meydana gəlməkdədir. Zənnimcə, Rusiya özü də bu barədə düşünməlidir ki, regionda təsirlərini saxlamaq üçün hansı yeni strategiya hazırlana bilər, necə bir doktrina ilə postsovet məkanına nəzarət edə bilər. Çünki yanaşmalar dəyişib və MDB arxaik bir təşkilata çevrilib.

Mənə belə gəlir ki, Rusiyadan başqa MDB-nin varlığını istəyən üzv ölkə yoxdur. Hətta Belarusun da bunda istəkli olduğunu görmürəm. Bir sözlə, Moskvanın SSRİ-ni bərpa etmək haqda ortaya atdığı tezislər, habelə Putinin müşavirinin son çıxışını nəzərə alsaq, onun yeni planlarla “arxa bağçası” saydığı bölgəyə qayıtmağa hazırlaşdığını təxmin etmək olar. Amma buna müvəffəq olacaqmı? İnanmıram. Hər halda, Qərb də kontur addımlar atmağa çalışır ki, Rusiya keçmiş SSRİ məkanında yenidən “at oynada” bilməsin".

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



## Əli Əsədov Tacikistan Prezidenti ilə görüşdü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurasının üzvlərinin Tacikistan Prezidenti ilə görüşündə iştirak edib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən xəbərə görə, iyunun 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tacikistanın paytaxtı Düşənbə şəhərinə işgüzar səfəri çərçivəsində MDB Hökumət Başçıları Şurasının üzvlərinin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonla görüşündə iştirak edib.



## Paşinyan kilsəni Kremlə işləməkdə suçladı

**Ermənistanın baş naziri Nikol Paşinyan erməni Apostol kilsəsini Rusiyadan təlimat almaqda ittiham edib. Bu barədə “Hraparak” qəzeti məlumat yayıb.**

“Nikol Paşinyan partiya üzvləri ilə toplantıda bildirib ki, Rusiya erməni Apostol kilsəsinə ötən il Baqrat Qalstanyan, indi isə Eçmiədzin (və ya bütün ermənilərin katolikosu II Qaregin) vasitəsilə hakimiyyətə qarşı mübarizə aparmağı əmr edib. Onun fikrincə, bu səbəbdən kilsə nümayəndələrinin çoxu hökumət əleyhinə bəyanatlar verir”, - məlumatda deyilir.

Xatırladaq ki, Nikol Paşinyanla erməni kilsəsi arasında münasibətlər son illərdə, xüsusən də hökumət nümayəndələrinin II Qareginin istefasını tələb etməsindən və onun 44 günlük müharibədə Azərbaycana məğlubiyyətə görə Ermənistan hakimiyyətini kəskin tənqid etməsi səbəbindən pisləşib. Baş nazirin ötən həftə katolikosu subaylıq andını pozmaqda və onun övladının olmasında ittiham etməsindən sonra kilsə ilə hökumət arasındakı gərginlik açıq müstəviyə keçib. Ermənistanın baş naziri bəyan edib ki, subaylıq andını pozduğu üzə çıxsa, II Qaregin vəzifəsindən ayrılmalı olacaq.

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# Azərbaycanın AES tikmək qərarı - yeni gəlişmə

## Ölkəmizin nüvə enerjisindən istifadəsi gündəmə gəlib, siyasi qərar gözlənilir; bu layihənin reallaşmasında bizə hansı dövlətlər kömək edə bilər? - rəy

**“Azərbaycanda nüvə enerjisindən istifadə aktual məsələyə çevrilib”. “Yeni Müsavat” bildirir ki, bunu Bakıda keçirilən 22-ci Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisində keçirilən panel müzakirəsi zamanı Fövqəladə Hallar Nazirliyinin (FHN) Nüvə və Radiasiya Fəaliyyətinin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin Nüvə və Radiasiya Təhlükəsizliyi Ekspertizası şöbəsinin müdiri Mətanət Qəhrəmanova deyib.**



O qeyd edib ki, nüvə texnologiyaları müxtəlif sahələrdə tətbiq olunur və ölkənin sürətli inkişafı fonunda onlardan istifadə məsələsi aktuallığı artırır. **Qəhrəmanova deyib:** “Azərbaycan texniki dəstək göstərən və karbon emissiyalarının azaldılması üzrə Atom for Net Zero təşəbbüsünü təşviq edən MAQATE-nin üzvüdür. Məqsəd təkcə enerji sektorunda deyil, həm də nəqliyyat və sənayedə nüvə enerjisindən istifadə etməklə emissiyaları sıfıra endirməkdir”.

**Onun sözlərinə görə, hazırda dünya elektrik enerjisinin təxminən 10%-i nüvə enerjisi hesabına istehsal olunur və bu rəqəmi artırmaq olar:** “Lakin bu istiqamətdə tədbirlərin həyata keçirilməsi üçün bir sıra mərhələlərdən keçmək lazımdır. Birinci mərhələ ölkənin siyasi qərarının qəbul edilməsidir. Atom energetikasının inkişafı strategiyasını hazırlamaq və onun hansı sahələrdə tələb oluna biləcəyini müəyyən etmək lazımdır”.

Bəs Azərbaycana atom elektrik stansiyası lazımdırmı? Bu suala **Prezident İlham Əliyev** ötən ilin dekabrında “Rossiya Seqodnya”nın baş direktoru Dmitri Kiselyova müsahibəsində cavab verib. Prezident deyib ki, Azərbaycanın qaz və qaz-kondensat ehtiyatları zəngindir və 25 milyard kubmetr ixrac həcmi ilə ölkəmiz əlavə enerji mənbələrinə ehtiyac duymur: “Üstəlik, Qarabağda və Şərqi Zəngəzurda son üç ildə təxminən 300 meqavatlıq kiçik SES-lərin yaradılması layihələrini artıq həyata keçirmişik və iki ildən sonra bu, 500-ə çatacaq. Xəzərdə isə külək enerjisi ehtiyatları 157 min meqavatdır. 2030-cu ilə qədər artıq imzalanmış müqavilələr və indi yerinə yetirilənlər bizə 6 min meqavat verəcək”.

**Amma Prezident daha sonra bunları deyib:** “Bu sahə (AES-i nəzərdə tutur - red.) potensial kadrlar deməkdir, bu, bizim heç vaxt malik olmadığımız tamamilə yeni kadrlardır. İkincisi, hər halda, bu, dünyada mövcud olan tendensiyadır və ondan geri qalmaq istəmirik. Ona görə də artıq mənim tərəfimdən tapşırıq verilib ki, elmi təcrübəli strukturların, elmi məqsədlərlə kiçik reaktorların imkanları öyrənilsin ki, bunun məhz bu nöqteyi-nəzərdən bizə nə verəcəyini görə bilək. Bunun çox bahalı iş olduğunu, günəş, külək enerjisi layihələrinin Azərbaycanda xarici investorlar tərəfindən həyata keçirildiyini, dövlətin heç bir sərmayə qoymadığını, sadəcə, belə bir potensiala malik olacağını nəzərə alaraq, əlbəttə, biz bu sahəyə daha çox investisiya layihələrində maraqlı idik. Əgər hər hansı bir ölkədən hansısa şirkət maraq göstərərsə, biz də birgə investor ola bilərik. Zənnimcə, bu, investisiyalar üçün yaxşı layihə ola bilər. Bu baxımdan mən bir növ sizin sualınıza cavab verməyə çalışdım. Bu, “hə” və ya “yox” demək deyil. Bu, daha çox “hə”dir, amma ... Bundan sonra bizim bir növ ev tapşırığımız başlayır".

AES qurulması sahəsində lider dövlət Rusiya və ABŞ-dır. Son vaxtlar ABŞ daha təhlükəsiz və daha kompakt AES texnologiyasını reklam edir. Bu mini-AES-lərdən birini Ermənistanda qurmaq planı da var. Azərbaycanda nüvə enerjisindən istifadə vacibdirmi?

Xatırladaq ki, bir neçə il əvvəl Rusiya Azərbaycana Atom Elektrik Stansiyası tikmək təklif edib. Bunu energetika naziri Pərviz Şahbazov açıqlamışdı.

**Professor Elxan Mirzəyev “Yeni Müsavat”a sözlərinə görə, Azərbaycanın indi AES tikməsi xarici dəstək olmadan mümkün deyil. Nüvə enerjisi əldə etməyin heç də pis divident olmadığını deyən professorun fikrincə, bir problem var - bu sahədə mütəxəssislər yetişdirməmişik:** “Cənab Prezident də bildirib ki, hələlik əlavə enerji mənbələrinə ehtiyac duyulmur. Amma bundan imtina da etmirik və AES tikilməsi pis olmazdı. Dövlət başçısı Azərbaycanın bu layihəyə hazır olduğunu açıqlayıb. Sadəcə, potensialımız buna imkan vermir. Bizə bu sahədə ABŞ, Avropa Birliyi, ya da Rusiya kömək etməlidir. Ancaq FHN rəsmisinin çıxışında bir nüansı da nəzərdən qaçırmaq olmaz. O, bu məsələ üçün siyasi qərarın vacibliyini vurğulayıb. Ona görə də ilk növbədə siyasi rəhbərliyin yekun razılığı olmalıdır, sonra işin elmi-texniki tərəfləri müzakirə edilməlidir. Zənnimcə, bu məsələ aktual olduğu qədər reallaşması çox yaxında deyil. Yeni AES tikmək sahəsində təcrübəsi olan dövlətlərin dəstəyindən istifadə etmək məcburiyyətindəyik”.

**E.Mirzəyev Azərbaycanın Avropanın enerji təminatında əhəmiyyətli ölkə olduğunu xatırladıb və Aİ-nin bu sahədə dəstək verə biləcəyini istisna etməyib:** “Bu layihənin həyata keçirilməsindən sonra Azərbaycan Şərqi Avropanın enerji təchizatında rolunu və potensialını daha da artıra bilər. O səbəbdən də Avropa İttifaqı Azərbaycana maliyyə və digər istiqamətlərdə dəstəyini verməlidir. Bu, sonradan Balkan ölkələrinin də istifadə edə biləcəyi əlavə enerji mənbəyi ola bilər”.

**Professor hesab edir ki, eyni zamanda Türkiyə və İran bizə kömək edə bilər:** “Hər iki dövlətin ərazisində AES-lər var, bu layihələri inşa etmək təcrübəsinə malikdirlər. Məsələn, İranın Buşehr şəhərində AES istismara verilib, Türkiyənin isə Mersin əyalətində "Akkuyu" ilk atom stansiyasının tikintisini qeyd etmək olar. Ümumiyyətlə, Azərbaycan çoxdandır ki, elektrik enerjisinin alınması, eləcə də elmi məqsədlərlə sülh atomundan istifadə imkanlarını öyrənir. Onu da deyim ki, ölkədə atom energetikası obyektlərinin lokallaşdırılmasına dair fikirlər ilk dəfə 70-ci illərin ortalarında ortaya atılıb. Hətta 1980-ci ildə Bakıdan 90 km cənub-şərqdə yerləşən Nəvai qəsəbəsində layihə gücü təxminən 1000 MVt olan AES-in təməli qoyulub. Məqsəd cənub regionunun sənaye potensialının genişləndirilməsi idi. Amma o zaman bu layihənin reallaşdırılması nədənsə ləngidi. Sonra Çernobıl qəzası baş verdi, iş tamamilə donduruldu. Bu günə gəldikdə, əgər rəsmi Bakının belə bir niyyəti olarsa, ölkəmizin enerji təhlükəsizliyi sahəsində əhəmiyyəti daha da artacaq, Ermənistan arxa planda qalacaq".

Xatırladaq ki, hazırda ərazisində köhnə və istifadəsi təhlükəli sayılan atom elektrik stansiyası olan Ermənistan məhz buna görə dünyanın ən riskli zonası hesab edilir. 1988-ci il dekabrın 7-də baş vermiş və 25 min insanın ölümü ilə nəticələnən Spitak zəlzələsinin episentri Metsamor stansiyasından 75 kilometr aralıda qeydə alınmışdı. Bu zəlzələdən sonra ciddi zərər görən stansiya təhlükəli vəziyyətdə olsa da 3 ay müddətində istismar edilmişdi. O vaxt yerli əhalinin təzyiqlərindən sonra və sovet hakimiyyətinin təhlükəsizliklə bağlı narahatlığından irəli gələrək AES-in fəaliyyəti dayandırıldı. Ancaq Ermənistanın elektrik enerjisinə ehtiyacının 40 faizini təmin edən stansiyanın dayandırılması ölkədə enerji böhranın meydana gəlməsi ilə nəticələndi. Bu isə təbii enerji resurslarının qıt olduğu bir ölkə üçün sosial-iqtisadi tənəzzülə səbəb oldu. Beynəlxalq tənqid və təzyiqlərə baxmayaraq, Ermənistan böhrandan çıxmaq üçün “Metsamor”u yenidən işə saldı. 1995-ci ildən etibarən elmi və iqtisadi sferalarda “Saatlı bomba” statusu alan bu stansiya yenidən enerji istehsalına başladı.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**




# Süni İntellektlə bağlı dövlət standartları qəbul edildi

**Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən Süni İntellekt sahəsində yeni dövlət standartları qəbul edilib.**

AZSTAND-dan "Teleqraf"a verilən məlumata görə, qurum tərəfindən AZS ISO/IEC 23894:2025 “İnformasiya texnologiyaları - Süni intellekt - Risklərin idarə edilməsi üzrə təlimat”, AZS ISO/IEC 23053:2025 “Maşın öyrənməsindən istifadə edən süni intellekt sistemləri üçün çərçivə sənədi”, AZS ISO/IEC 24029-2 2025 “Süni intellekt - Neyron şəbəkələrinin dayanıqlılığının qiymətləndirilməsi” dövlət standartları qəbul edilib.

Sözügedən dövlət standartları Süni İntellekt (Sİ) sistemlərinin etimadı doğrultma mövzularını, o cümlədən bu sistemlərin əsas hesablama xüsusiyyətlərini, onlarda istifadə olunan vacib alqoritmlər və yanaşmaları müəyyən edir.

Yeni dövlət standartlarının tətbiqində məqsəd Sİ sistemlərinin müxtəlif platformalarda və sahələrdə düzgün işləməsi üçün ümumi qaydalar və təlimatların yaradılmasını, həmçinin qarşılıqlı şəkildə işləməsini təmin etməkdir.

Yeni dövlət standartları “İnformasiya-kommunikasiya texnologiyaları” standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 05) müzakirəyə çıxarılıb və institut tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Qeyd edək ki, yeni dövlət standartları Prezidentin 2025-ci il 19 mart tarixli 530 nömrəli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.5-ci yarımbəndinin icrası məqsədilə qəbul edilib.

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# “Rosselxoznadzor” Azərbaycana qarşı

## Sabiq nazir: “Təəssüf ki, bu gün xarici ticarətimiz bu ölkə ilə çox bağlıdır”

**Rusiya Azərbaycana qarşı “meyvə-tərəvəz müharibəsi”ni davam etdirir. “Rosselxoznadzor” bəyan edib ki, Azərbaycandan Rusiyaya “qeyri-kafi təhlükəsizlik tədbirləri ilə müşayiət olunan meyvə-tərəvəz məhsullarının tədarükü artıb”.**

O da iddia olunur ki, Azərbaycandan Rusiya ərazisinə karantin tətbiq edilən malların tədarükü zamanı fitosanitar tələblərin pozulması halları artıb və sənədlərdə yalan məlumatlar göstərilib. “Rosselxoznadzor” “Rusiyaya tədarük edilən məhsulların fitosanitar təhlükəsizliyinin təmin edilməsi üzrə Azərbaycan sisteminin kifayət qədər effektiv olmadığı”ndan gileylənib.



Hələlik “Rosselxoznadzor” Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyindən bu faktlarla bağlı rəsmi araşdırma aparmağı və respublikadan Rusiyaya karantin tətbiq edilən məhsulların tədarükü zamanı beynəlxalq tələblərə əməl olunmasına zəmanət vermək üçün tədbirlər görməyi xahiş edib.

Bəllidir ki, Rusiya hakimiyyətinin bu cür narazılıqları adətən siyasi proseslərdən qaynaqlanır. Ona görə “Rosselxoznadzor”un obyektivliyinə inanmaq çətindir. Moskva, sadəcə olaraq, “bazar üsullarından” istifadə edərək öz siyasətini yenidən həyata keçirir. Bu o deməkdir ki, biz meyvə-tərəvəz məhsulları üçün yeni bazarlar axtarmalıyıq, burada artıq belə “siyasi sürprizlər” olmayacaq.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov burada təəccüblü heç nə görmür**: “Əslində daxili və xarici siyasətində oyun qaydaları olmayan bir dövlətin bu cür davranışı bizi təəcübləndirməməlidir. Dünya nə qədər dəyişsə də, bunlar dəyişib irəli gedə bilmirlər. Qonşuları ilə siyasi müstəvidəki məsələləri meyvə-tərəvəzin keyfiyyətinə qara yaxmaq yolu ilə həll etməyə çalışmaq qədər siyasi cığallıq acizlik əlamətidir. Rusiya hətta bir ittifaqda olduğu Belarusla mütəmadi olaraq belə "oyunlar" oynayır. Mən uzun müddət Rusiyada yaşamış bir adam kimi dəfələrlə belə halların şahidi olmuşam. Rusiya Prezidenti Vladimir Putinlə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında siyasi müstəvidə fikir ayrılığı yaranan kimi, Rusiyanın sanitar xidməti Belarusdan Rusiyaya gətirilən məhsullarda hansısa qeyri-sağlam elementləri “aşkarlayır” və bununla da həmin məhsulların Rusiya bazarlarına girişinə qadağalar qoyurlu. Rusiya hökumətinin bu baxışları dəyişməzdir. Onlar bu gün Ukrayna ərazilərini işğal etmək üçün başlatdıqları müharibədə heç nədən çəkinmədən və utanmadan Ukrayna ərazisində yaşayış məntəqələrini, xəstəxanaları, uşaq evlərini raketlərlə və pilotsuz uçuş aparatları ilə vururlar. Biz də 44 günlük İkinci Qarabağ savaşında Gəncəyə, Tərtərə, Bərdəyə atılan raketlərin haradan uçduğunu yaxşı bilirik...

Rusiya bütün dünya ilə belə davranır. Onun başqa oyun qaydaları olmur. Bu elə bir dövlətdir ki, onun ipinin üzərinə odun yığmaq həmişə təhlükəlidir. Biz bunu yaxşı bilirik. Lakin təəssüf ki, bu gün xarici ticarətimiz bu ölkə ilə çox bağlıdır. Bu bağları zaman-zaman kəsmək, idxal və ixracımızı maksimum şaxələndirmək hökumətin ən mühüm vəzifələrindən biri olmalıdır.

Bizim real sektordan ixracımız üçün geniş bazarlar mövcuddur. Pakistan kimi əhalisi Rusiyanın əhalisindən 1,5 dəfə çox olan bir ölkə bizim neftdən, qazdan hazırlanan məhsullarımızın ən yaxşı bazarlarından biri ola bilər. Meyvə-tərəvəz üçün ən yaxşı bazarlar isə ərəb dünyası ölkələri ola bilər. Bu istiqamətlərdə çalışmalıyıq. Mümkündür ki, yaxın bir neçə ildə biz ixracımızın xəritəsini dediyimiz istiqamətlərdə əsaslı şəkildə dəyişə bilək. Bunun üçün həmin ölkələrlə daha yaxından işləmək lazımdır. Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasət xətti bu dediklərimizi reallaşdırmaq üçün ölkənin iqtisadi komandasına bu istiqamətdə fəaliyyət üçün çox münbit bir zəmin yaradır. Pakistanla qardaşlıq, ərəb dünyası ölkələri ilə yaxın dostluq dediklərimizin sübutudur".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Azərbaycanın NATO ilə treninqi kimlərin yuxusunu qaçırdı?

## İnternetin Rusiya seqmentində əcaib reaksiyalar

**Azərbaycan Müdafiə Nazirliyi və NATO arasında 2025-ci il üçün “Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı”na əsasən, Niderland Krallığının Brunssum şəhərində yerləşən Müştərək Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu ilə “Əməliyyatların planlama prosesi” mövzusunda treninq keçirilir.**



Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Milli Müdafiə Universitetinin Hərb Oyunları Mərkəzində keçirilən treninqdə NATO-da əməliyyat planlama və idarəetmə, eləcə də digər mövzularda nəzəri və praktiki məşğələlər təşkil olunur.

“Bakı NATO-ya stavka etdiyini gizlətmir. Artıq söhbət formal əməkdaşlıqdan yox, blokun strukturlarına faktiki inteqrasiyadan gedir. Azərbaycan alyansın qüvvələri ilə əməliyyat planlaşdırır”.

İnternetin Rusiya seqmentində anti-Azərbaycan resurslarının birində məşğələlərə belə reaksiya verilib. Bu cür qərəzli mövqelərdə sanki belə rəy yaradılır ki, guya Bakı ilə NATO Moskva ilə münasibətlərdə yaranmış gərginlikdən sonra əməkdaşlığa başlayıblar. Bəllidir ki, Azərbaycanla NATO arasında çoxillik əməkdaşlıq çərçivəsində həm nəzəri, həm də praktiki olaraq kifayət qədər tədbirlər keçirilir ki, onların təşkili üçün suveren dövlət kimi Azərbaycan üçüncü tərəfdən razılıq almağa borclu deyil. Bundan əlavə, Azərbaycan hərbi bloklardan kənarda qalmaq statusuna sadiqdir və bu qəbildən olan ittihamlar gülünc görünür. Azərbaycan hakimiyyəti balanslaşdırılmış xarici siyasətin amillərindən biri kimi 1994-cü ildə “Sülh naminə tərəfdaşlıq” sənədini imzalamaqla NATO ilə qarşılıqlı əməkdaşlığa başlayıb. Azərbaycan-NATO tərəfdaşlığının əsas istiqamətləri siyasi dialoq, sülhməramlı əməliyyatlar, terrorizmlə mübarizə, təhlükəsizliyin təmin edilməsi və müdafiəyə xüsusi önəm verilməklə praktiki əməkdaşlıqdır. Bütün bu məqamlar Azərbaycan tərəfindən 30 il əvvəl bəyan edilib və heç vaxt məxfilik təşkil etməyib. Görünür, Rusiyadakı bəzi dairələr Azərbaycana qarşı kin-küdurətini büruzə vermək üçün hər bir fütsətdən istifadə edir.

**Vaxtilə NATO Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü olan, Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin deputatı Elşən Musayev “Yeni Müsavat”a açıqlamasında Azərbaycanın daim hər kəsə qarşı düzgün siyasət yeritdiyini bildirdi:** “Əlbəttə ki, Azərbaycanın istənilən uğurlu və müstəqil addımı müəyyən dairələrdə dərhal paxıllıq, qısqanclıq hissini alovlandırır və belə olan halda kimin ağlında özünə sərf edən, özünün ağlı kəsdiyi nə versiya varsa, anındaca irəli sürür. Hərgah, reallıq tam başqadır, gözlə görünən qədər şəffafdır və qayə etibarilə də ondan ibarətdir ki, Azərbaycanın NATO ilə əməkdaşlığı uzun illərə söykənən bir prosesdir və həmin əməkdaşlıq özündə heç bir zaman separat niyyətləri, kiməsə acıq vermək arzusunu, demarş kursunu ehtiva etməyib. Əksinə, bizim strategiyamız yetərincə aydındır, izahlıdır və əsaslandırılmışdır. Yəni, Azərbaycan kiminlə əməkdaşlıq edirsə, bunu daim kişiyanə edir, açıq edir, rəsmi dövlət siyasətinin platforması səviyyəsində edir və buna görə də Rusiyadakı bəlli - qərəzli seqmentin Azərbaycan - NATO münasibətlərində hansısa qara məqsədlər axtarması, mövzunu kontekstdən çıxarma cəhdləri tamamən absurd və yolverilməzdir. NATO məgər yeni söhbətdir? Bizim NATO ilə əməkdaşlığımız məgər indi başlayıb? Yox, təbii. Bu təmaslar 1994-cü ildən, "Sülh naminə tərəfdaşlıq" sənədi imzalanandan bəri var və Azərbaycan tərəfi də hər zaman məlum əməkdaşlığa, münasibətlərə hörmətlə yanaşıb.

Ayrıca, biz hərbi bloklarla bağlı mövqeyimizi çoxdan müəyyənləşdirmişik və KTMT-yə, digər hərbiləşmiş təşkilatlara deyil, məhz NATO-ya doğru istiqamətlənmişik. Ona görə də Azərbaycan Müdafiə Nazirliyinin NATO ilə bərabər müştərək treninq keçirməsində kimsə alt məqsədlər axtarmamalı, mövzunu başqa yerlərə doğru istiqamətləndirməməlidir. Bu, təbii, normal bir prosesdir və ortalıqda da heç bir gizlin məqsəd-filan yoxdur".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Hindistanın Bakını "güllə atmadan yıxmaq" yuxusu

## Yeni Dehlinin məzmunsuz və səviyyəsiz hind filmlərindən o tərəfə keçməyən isterikası...

**İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Şahbaz Şərifin iştirakı ilə Laçında keçirilən Azərbaycan, Türkiyə və Pakistanın üçtərəfli sammiti regionda mühüm xarici siyasət hadisəsi olmaqla yanaşı, Hindistanın reaksiyası ilə də diqqət çəkir. Xüsusilə bu ölkə mediası ilk günlər bu görüşə əsəbi reaksiya verirdisə, indi açıqca isterikaya qapılıb.**

Minval.az yazır ki, Hindistanın media resurslarından biri belə bir başlıqla diqqət çəkib: "Hindistan bir güllə belə atmadan Azərbaycanı məhv etməyə hazırlaşır". Yeni Dehli bu mövqe ilə hesab edir ki, onların İrəvana silah satmaları "Bakını elə qorxudub ki, bir güllə atmadan yıxılacaqlar..." Yeri gəlmişkən, bu yaxınlarda bəlli oldu ki, Hindistan Ermənistana vəd etdiyi silah partiyasını vaxtında çatdıra bilməyib.

Hindistan ordusunun son uğursuzluqları fonunda (istər Pakistanla toqquşmalar, istərsə də Çinlə sərhəddəki münaqişələri yada salanda) "Azərbaycanı məhv etmək" planları xüsusilə absurd görünür. Buna sırf praktiki bir məqamı da əlavə edək: "Akaş" hava hücumundan müdafiə sistemi də daxil olmaqla, Ermənistana 1,5 milyard dollar dəyərində silah tədarükü dondurulub. Erməni mətbuatının yazdığı kimi, Hindistanın dövlət korporasiyası "Bharat Electronics Limited" ikinci partiyanın göndərilməsini təxirə salıb. Səbəb sadədir - Pakistanla gərginliyin növbəti mərhələsi üçün raketləri özlərinə saxlamağa qərar veriblər.

Hindistanın bu bölgəyə, ümumiyyətlə, müdaxilə etmək üçün heç bir coğrafi, tarixi və ya mədəni əsası olmadığını nəzərə alsaq, bu, xüsusilə absurddur. Sovet dövründə hind filmlərində Qabbar Sink adlı mənfi obraz vardı. İndi özünü filin üstündə nəhəng görən Hindistan Bakı üçün olsa-olsa ancaq o mənfi obrazdır...

Hindistanın bu bölgəyə müdaxilə etmək üçün chər hansı əsası varmı? Yazılanları edə bilərmi, yoxsa absurd hind filmlərindəki kimi hay-küyləri "boş qazanın danqıldaması" effektidir?

**"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov** "Yeni Müsavat"a bildirdi ki, Hindistan son illər yüksək sürətlə inkişaf eləyən, əhalinin sayına görə dünyada hətta Çini də ötən bir dövlətdir. Azərbaycan heç vaxt Hindistanı hədəf götürərək onun əleyhinə bəyanatlar verməyib. Əslində Azərbaycan, Türkiyə və Pakistan liderlərinin keçirdikləri görüş də Hindistana qarşı təşkil olunmuş görüş deyildi: "Hindistanın müəyyən dairələrinin bu görüşə o cür qısqanclıqla, narazılıqla, qəzəblə yanaşması anlaşılmazdır. Hindistan öz çəkisinə görə çox təəssüf ki, hələ də davranmağı öyrənməyib. Onların bəyanatları məzmunsuz, səviyyəsiz hind filmlərindən çox təəssüf ki, o tərəfə keçmir. Azərbaycana qarşı Hindistan nə edə bilər? Birincisi, Hindistanın bölgəyə müdaxilə eləmək imkanları çox məhduddur. Çünki Cənubi Qafqaz bölgəsindən kifayət qədər uzaqda yerləşir, ümumi sərhədlərimiz yoxdur. İkincisi, o qədər böyük gücü də yoxdur ki, digər dövlətləri vurub buradan çıxarsın. Bu bölgədə Rusiyanın kifayət qədər böyük təsiri var, Avropa bölgəyə müdaxilə eləmək istəyir, Çinin təsiri və planları var, Amerikanın bölgədə təsir imkanları mövcuddur, Türkiyə, İran faktorları da var. Belə bir şəraitdə Azərbaycanı bölgəyə girməklə müdaxilə ilə hədələməsi səviyyəsizlikdən başqa bir şey deyil".



**Ekspert hesab edir ki, Hindistanın görə biləcəyi işlər məlumdur:** "Ermənistana 5-ci dərəcəli keyfiyyətsiz silahlar sata bilər və satır, beynəlxalq qurumlarda Ermənistana dəstək verə bilər və verir, eyni zamanda Azərbaycan üçün müəyyən manelər yaradır. Məlumdur ki, Azərbaycan uzun müddətdir Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi status almaq istəyir. Ancaq Hindistan buna mane olur. Eyni zamanda BRİCS-lə bağlı da bizim müəyyən istəklərimiz var və burada da Azərbaycanın qarşısını Hindistan alır. Çox təəssüf ki, Hindistan Azərbaycana qarşı bu cür düşmən mövqe sərgiləyir. Ancaq bundan o tərəfə keçmək gücü və imkanı yoxdur".

**A.Səmədov qeyd etdi ki, Azərbaycana qarşı isterik bəyanatlar vermək ciddilikdən tamamilə uzaqdır. Azərbaycanın müstəqil xarici siyasət xətti var və burada Türkiyənin, Pakistanın xüsusi yerinin olduğu bəllidir:** "Hər iki dövlət bizə yaxın qardaş dövlətlərdir. Lakin biz bu qardaşlığımızı kiməsə qarşı formalaşdırmamışıq. Biz iqtisadi əlaqələri genişləndirmək istəyirik, hərbi sahədə əməkdaşlığımız var, bir-birimizə mümkün dəstəyi verməyə çalışırıq. Bu, Hindistanı nədən bu qədər narahat edir, niyə bu qədər hiddətləndirir aydın deyil. Çox təəssüf ki, Hindistan həm bölgədə, həm də bütövlükdə dünyada əhalisinin sayına və çəkisinə uyğun davranmağı hələ öyrənməyib. Ümid edək ki, öyrənəcək və dövlətlərin müstəqil xarici siyasət yeritməsinə səbirlə yanaşmağın zəruri olduğunu anlayacaq".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Konsul oyunu" - Qafqaza yürüş, yoxsa Bakıya mesaj?

## Fransa Ermənistanda yeni mövqe qazanmağa çalışır

**Ermənistanın Gorus meriyasının yaxınlığında Fransanın fəxri konsulluğu açılıb. Fəxri konsul vəzifəsinə Ermənistan vətəndaşı, milliyyətcə erməni olan Karmen Apunts təyin edilib.**



Açılış mərasimində Fransanın Ermənistandakı və Ermənistanın Fransadakı səfirləri, Ermənistan Respublikasının ərazi idarəetməsi və infrastruktur naziri, xarici işlər nazirinin müavini, Sünik qubernatoru, Gorus meri, Fransanın Vyen şəhərinin meri, fransalı senatorlar və digər rəsmi şəxslər iştirak ediblər.

Xatırladaq ki, Fransanın xarici işlər naziri Jan-Noel Barro bir müddət əvvəl İrəvanda Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla keçirdiyi birgə mətbuat konfransında Gorus şəhərində konsulluq açacaqlarını bəyan etmişdi.

Qeyd edək ki, fəxri konsulluq institutu Baş Konsulluqla müqayisədə daha aşağı statusa malikdir. Adətən fəxri konsulun diplomatik toxunulmazlığı olmur və o, siyasi funksiyalar yerinə yetirmir. Onun fəaliyyəti əsasən humanitar və mədəni təşəbbüslər, bəzən isə konsulluq xidməti göstərilməsi ilə məhdudlaşır.

**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin dünya siyasəti fakültəsinin beynəlxalq təhlükəsizlik kafedrasının professoru, siyasi elmlər doktoru Aleksey Fenenko** "Vestnik Kavkaza"ya müsahibəsində Gorusda konsulluq açmaqla hansı məqsəd güddüklərini şərh edib.

"Ermənistan Fransanı Azərbaycana qarşı hərbi revanş cəhdlərinə cəlb etməyə ümid edir. Ermənistan rəhbərliyinin əsas məqsədi Azərbaycanla döyüşə bilmək üçün ölkəni silahlandıracaq, müasir silah verəcək tərəfdaş tapmaqdır", - deyə o bildirib.

"İrəvan elə şərait yaratmağa çalışır ki, NATO-nun Ermənistanla münasibətlərdə geri çəkilə biləcəyi heç bir məqam qalmasın. Xüsusən də Fransa ilə Azərbaycan arasında münasibətləri o dərəcəyə qədər korlamağa çalışır ki, daxili siyasi vəziyyətdən asılı olmayaraq, Parisin Ermənistana silah tədarükündən başqa alternativi qalmasın. Baş verən bu hadisə də Fransanı İrəvanın revanşist planlarına cəlb etmək üçün təxribatdır" - Fenenko qeyd edib.

"Amma Fransanın da öz motivasiyası var. Birincisi, Fransa hakimiyyəti güclü erməni diasporuna baxaraq hərəkət edir. Hətta ABŞ-da belə erməni diasporu dövlətə Fransada olduğu qədər təsir edə bilmir. Məhz bu qüvvə Fransanı Ermənistana dəstək və Azərbaycanla qarşıdurmaya doğru sürükləyir", - rusiyalı politoloq əlavə edib.

"Bundan əlavə, Gorusda, Azərbaycanla sərhəddə və İran sərhədinə yaxın ərazidə konsulluq açmaqla prezident Emmanuel Makron özünü xarici siyasətdə uğurlu lider kimi təqdim etmək, Fransanın Cənubi Qafqaza nüfuzunu daha da artırdığını nümayiş etdirmək istəyir", - Aleksey Fenenko fikrini tamamlayıb.

Maraqlıdır, görəsən, rusiyalı professorun bu qənaəti həqiqətə nə dərəcədə uyğundur? Doğrudanmı, Fəxri Konsulluğun fəaliyyəti Azərbaycanın təhlükəsizliyi üçün ciddi təhlükə yarada bilər?

Bununla bağlı Pressklub.az-a danışan **müstəqil siyasi ekspert Nəsimi Məmmədli** xatırladıb ki, SSRİ-nin dağılmasından sonra ABŞ və Avropa İttifaqı Cənubi Qafqaz regionuna vahid geosiyasi məkan kimi yanaşırdı.

"Güclü erməni lobbisinin səyi nəticəsində ABŞ və Fransada Ermənistana münasibətdə müəyyən istisnalar olmasına baxmayaraq, ümumilikdə Cənubi Qafqazın üç dövlətinə eyni standartlar tətbiq edilirdi. Məsələn, regionu Avropa siyasi və hüquqi standartlarına yaxınlaşdırmaq, müxtəlif siyasi və hüquqi birliklərdə iştirakını təmin etmək kimi məsələlərdə vahid yanaşma mövcud idi.

Lakin Qarabağ münaqişəsinin hərbi həllindən və Rusiyanın Ukraynaya qarşı təcavüzündən sonra Qərbin Cənubi Qafqaz siyasəti dəyişdi. Hazırda Avropa Cənubi Qafqaz siyasətini ABŞ-la koordinasiya etmir. Ümumiyyətlə, həm ABŞ-ın, həm də Avropanın Cənubi Qafqaza dair siyasəti hələ də tam dəqiq və konkret deyil. Bu, daha çox situativ xarakter daşıyır.

Azərbaycanın Avropanın 10 dövləti ilə çox yaxşı, 11 ölkə ilə isə orta səviyyəli ikitərəfli münasibətləri var. Digər Avropa ölkələri ilə münasibətlərdə müəyyən problemlər qalır. Əsas problem isə Fransadır.

Gürcüstan rəhbərliyi öz strateji təhlükəsizliyini daha çox Çin və region ölkələri ilə əməkdaşlıqda görür. Ermənistan rəhbərliyi isə ABŞ, Fransa, Hindistan və İranla xüsusi strateji münasibətlərə üstünlük verir. Lakin bu münasibətlər hələ də, sabit və davamlı xarakter daşımır. Cənubi Qafqazın gələcəyini Rusiya-Ukrayna müharibəsinin nəticəsi və ABŞ-ın İran və Çinə münasibətdə həyata keçirəcəyi yeni siyasət müəyyən edəcək", - ekspert bildirib.

**Onun sözlərinə görə, Sünik bölgəsində yaşayan əhali təhlükəsizliyi ilə bağlı ciddi narahatlıq keçirir:** "Əgər erməni sosial şəbəkələrinə inansaq, iddia olunur ki, Sünikdən Ermənistanın digər bölgələrinə və xaricə miqrasiya baş verir. Ermənistan hökuməti bu problemi həll etmək üçün regionda İranın konsulluğunu açıb. Fransanın konsulluq açması da əhalinin miqrasiyasının qarşısını almağa xidmət edir. Eyni zamanda bu addımlar Azərbaycanın hansısa hərbi addımlar atmaq ehtimalına qarşı qabaqlayıcı tədbirlər kimi qiymətləndirilir.

Fransa hökuməti Cənubi Qafqazdakı mövcudluğunu davam etdirdiyini nümayiş etdirmək və erməni lobbisinin dəstəyini qoruyub saxlamaq üçün Ermənistana xüsusi önəm verir.

Hazırda Cənubi Qafqazda qüvvələr nisbəti Azərbaycanın xeyrinə formalaşıb. Eyni zamanda regional və qlobal siyasi proseslər də Azərbaycanın maraqları çərçivəsində inkişaf edir. Bu vəziyyətin yaxın illərdə radikal şəkildə dəyişməsi real deyil. Ona görə də Ermənistanın yaxın və orta perspektivdə Azərbaycana ciddi təhlükə yaratmaq imkanı məhduddur".



# Noxud yeyən xoruzlar

Zamin HACI
zaminhaci@gmail.com

**Dünəndən bəri fikirləşirəm, hələ bu suala qəti cavab tapa bilməmişəm: "Neft və Sənaye Universitetini bitirən şəxsin cərrah işləməyinə qeyri-neft sektorumuzun inkişafı əlaməti kimi baxmalıyıq, ya yox?"**

Özü də kadrlardan görünürdü ki, yoldaş çox qətiyyətlidir, dönməzdir, bəlkə lap əbədidir. Sən demə, bunu klinikada bir dəfə "aşkar edib götürüblər", qovublar. Ancaq təzədən instaqramda-zadda profil açıb xəstələri qəbul edirmiş. Elə jurnalist klinikaya zəng vurub getmişdi, kabinetdə "həkimlə" çəkiliş də olmuşdu. Lakin klinikanın baş həkimi, ya da müdiri olan boynuyoğun tip direşmişdi, deyirdi mümkün deyil, onu qovmuşuq.

Yəqin casus kimi pəncərədən içəri daxil olubdur. Adı "Mayo" olan klinikada hər cür hadisə gözləmək mümkündür. Çünki mayo - ya mayonez deməkdir, ya da çimərlik geyimi. Əsl klinika adıdır. "Med", "Bio" ilə başlayan klinika adları qurtarıbdır. Növbə mayolardadır. Ən yaxşısı klinikanın adı "Maygülü" olmalıydı.

Başqa özəl-gözəl klinikada isə plastik cərrah xəstə qadını çarpayıya uzadıb canlı yayımla... məmələrini böyüdürdü. Oynaya-oynaya! Səhiyyəmizin inkişafının ən gözəl örnəyi idi. Oynamayıb neyləyəsən, bizə bu cür müsbət şərait yaradılmışdır.

Hələ klinikanın interyeri lap fısqırıq idi. Əsl şadlıq sarayı. Məsələn, "xəstə" süni palma ağacının altına uzadılmışdı. "Həkimin" arxa planında isə divara toyxana estetikasında bəzəklər vurulmuşdu: rəngli işıqlar, ortada üzük qaşı-filan... Bircə "Əməliyyatınız mübarək" yazısı çatışmırdı.

Sözgəlişi, deyirlər nazirlik belə çəkilişləri qadağan edibdir. Niyə? Məncə, dəstəkləmək lazımdır. Qabaqlar biz belə şeyləri xaricdə görmüşdük. Adam beyin əməliyyatı keçirərkən skripka çalmışdı. Əlbəttə, həkim yox, pasiyent. Bizim özəl klinikalarda hələlik həkimlər, cərrahlar oynaqlayır və pasiyentlərə müsbət enerji paylayır.

Sadəcə, yaxşı olar nazirlik repertuar müəyyən eləsin, çətin əməliyyatlara xalq artistləri, qarmonçalan və qoşanağaraçılar ansamblı dəvət olunsun, həmçinin əməliyyatın bileti satılsın. Pul verib həm səhiyyəmizə dəstək olarıq, həm də əməliyyata canlı baxarıq, gözümüz-könlümüz açılar. Videoyazı həmin effekti vermir.

Repertuar məsələsi ciddi temadır. Məsələn, bizə çatdırılan kadrlarda plastik cərrahın hansı havaya oynadığı aydın olmurdu. Sadəcə, arada nəsə "məmələr, ay məmələr, biz sizə minnətdarıq" tipində nəqarat mızıldayırdı. Bu isə düzgün deyil. Musiqi rəqslə uyuşmalıdır. Ekspertlər rəy verməlidir ki, hansı rəqsi oynaya-oynaya cərrahiyyə edəndə bıçaq yerinə düz oturur, tikiş zamanı nəyə oynamalısan, kor bağırsağın əməliyyatında Üzeyir Mehdizadə, dodaq böyüdərkən xalq artisti Ləbnəm xanım, yanaq dartanda digər xalq artisti Gülyanaq xanım müşayiət etsə pasiyentin sağ qalmaq ehtimalı nə qədər çoxalır və sairə. Şəxsən mənim fikrimi soruşsanız, cərrahiyyə üçün ən uyğun milli rəqslərimiz sırasında "Tərəkəmə", "Yallı" (xəstənin qohumları da iştirak edir - ödənişdən sonra, təbii ki), "Nəlbəki", "Qaytağı", "Hellayı çal, Əjdər əmi" kimi milli havalarımızın adını çəkə bilərəm.

Təbabət incə məsələdir. Burada elmi araşdırmalar vacibdir. Örnək üçün, dünən köhnə oxuculardan Ruslan bəy İbn Sinadan belə dəyərli fikirləri tapıb mənə yollamışdır: "Özünü qadın kimi hiss edən kişilərə 40 gün xoruz əti yedizdirmək, özünü kişi hiss edən qadına isə 40 gün noxud suyu içirmək lazımdır". Vəssalam. Bununla LGBT problemi aradan qalxırmış. Gör dünya sadə bir həll əvəzinə neçə illərdir necə girinc qalıb, didişir.

Əlbəttə, İbn Sina gərək onu da yazaydı ki, nəbadə xoruzlar əvvəlcə noxudla bəslənsin. Əks halda, əməliyyatın heç bir uğurlu perspektivi yoxdur.



# "907-ci düzəliş" Trampın masasında

## ABŞ-ın 33 illik yanlışı düzəltməsi üçün imkanlar yaranıb

**"Azərbaycan ABŞ hakimiyyətindən "907-ci düzəliş"i ləğv etməyi gözləyir. Bu, ikitərəfli münasibətlərin inkişafına mane olur". Bu sözləri Azərbaycanın Vaşinqtondakı səfiri Xəzər İbrahim "Diplomatic Watch"a müsahibəsində deyib.**

O qeyd edib ki, Azərbaycan ərazilərinin işğal altında olduğu, regionda etnik təmizləmənin (azərbaycanlılara qarşı) aparıldığı dövrdə Azərbaycana münasibətdə ədalətsiz olaraq 907-ci maddə qəbul edilib. "Bu düzəlişin qəbulu Konqresdəki müəyyən lobbi qruplarının təzyiqi nəticəsində mümkün olub", - diplomat əlavə edib.

Onun sözlərinə görə, ABŞ-la Azərbaycan arasında çox güclü əlaqələr var: "Azərbaycanın strateji mövqeyini nəzərə alsaq, ABŞ-la əlaqələrimiz bundan sonra da inkişaf edəcək. Azərbaycan ABŞ üçün vacib olan, demək olar ki, hər bir kritik məsələdə rol oynayır. Azərbaycan üçün isə ABŞ təkcə dünyanın fövqəldövləti olduğu üçün deyil, həm də ona görə vacibdir ki, bizim bir çox ümumi maraqlarımız və dəyərlərimiz var".

Xəzər İbrahim ümid edir ki, Bakı və Vaşinqton arasında münasibətlər "907-ci düzəliş olmadan" davam edəcək.

"907-ci düzəliş" ABŞ-ın Azərbaycana birbaşa dövlət yardımını qadağan edən sənəddir. "907-ci düzəliş" ilk dəfə 1992-ci ildə guya "Azərbaycan tərəfindən Qarabağın "işğalı" və Ermənistana qarşı blokadanı dayandırmaq" məqsədilə senator Con Makkeyn tərəfindən, daha sonra isə senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə konqresmen Veyn Ovens tərəfindən təklif edilib. Bu əlavə ilə Azərbaycan Amerika hökumətinin keçmiş sovet respublikalarına göstərdiyi yardımdan xaric edilən yeganə ölkə olub. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verib. "907-ci düzəliş" 2002-ci ildən bəri ABŞ prezidentləri tərəfindən hər il dayandırılır. 2023-cü ilin payızında isə ABŞ Konqresinin yuxarı palatasında "Erməniləri Müdafiə Aktı" (Armenian Protection Act) adı ilə qəbul edilmiş sənəd də 2024-2025-ci illər üçün Azərbaycana ABŞ yardımını və hətta onun Prezident tərəfindən dondurulmasını qadağan edir.

Azərbaycanın maddi olaraq yuxarıda adıçəkilən akta və ABŞ-ın birbaşa maliyyə yardımlarına ehtiyacı xeyli azalıb. Bununla belə, müddəanın Damokl qılıncı kimi bu əlaqələrin üzərində asılı qalması həm simvolik, həm də praktik baxımından manelər yaradır və ümumiyyətlə, Azərbaycan cəmiyyətində çox ədalətsiz və ikili standartların bir nümunəsi hesab edilir.

Belə görünür ki, Tramp administrasiyası Azərbaycana qarşı bu ədalətsiz davranışın fərqindədir. Önəmli olan bu amili amerikalı konqresmenlərin əksəriyyətinin anlaması və nəhayət ki, Azərbaycana qarşı tətbiq edilən "907-ci düzəliş"in ortadan qaldırılmasıdır. Yada salaq ki, Respublikaçılar Partiyası həm ABŞ Senatında, həm də Nümayəndələr Palatasında həlledici üstünlüyə malikdir. Trampın partiyası ötən il seçkinin nəticələri əsasında ABŞ Senatında üstünlük əldə edib. Respublikaçılar Partiyası Senatdakı 100 yerdən 52-nə, Demokratlar Partiyası isə yalnız 44-nə nəzarət edir. ABŞ Nümayəndələr Palatasında Respublikaçılar 435 yerdən 207-sini, Demokratlar isə 186-nı tuturlar.

Qeyd etdiyimiz kimi, prezident Donald Trampın Azərbaycana müsbət münasibəti ilə seçildiyi və Respublikaçıların Senatda, Konqresdə səs üstünlüyünə malik olduğu məlumdur. Bu amillər və ABŞ-ın özünün maraqları "907-ci düzəliş"in ləğv edilməsini şərtləndirə bilərmi?

**Deputat Aydın Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Donald Tramp istəsə, Amerikanın Azərbaycana birbaşa dövlət yardımını yasaqlayan "907-ci düzəliş"in fəaliyyətini dayandıra bilər: "Əslində 907-ci düzəliş ABŞ üçün səmərəsiz və lüzumsuz bir sənədə çevrilib. Hətta Amerika siyasətinin Cənubi Qafqazda həyata keçirilməsinə "907-ci düzəliş" ciddi əngəllər yaratmaqda davam edir. İndi yeni reallıqlar bunu tələb edir ki, bu məntiqsiz "düzəliş" ortadan qaldırılsın. Bunun ilk vaxtdan heç bir məntiqi olmayıb, şər üzərindən qəbul edilib. ABŞ qanunvericiliyinə görə, prezident həmin düzəlişə əhəmiyyət verməGdən də Azərbaycana yardım haqqında qərar verə bilər. Yəni hətta o düzəliş qüvvəsində olsa da prezident müəyyən anlarda Amerikanın maraqlarını nəzərdə tutaraq, "907-ci düzəliş"dən yan keçərək yardımı bərpa edə bilər. Hətta Konqres 907-ci düzəlişi ləğv etməsə belə, Prezident Tramp öz hüquqlarından istifadə edərək Azərbaycana yardım göstərilməsinə şərait yarada bilər. "907-ci düzəliş"in qəbul edilməsindən 33 il keçir. Azərbaycan bu müddətdə ABŞ-ın yardımları olmadan da böyük inkişaf yolu keçib, işğaldakı ərazilərini azad edib, bütün ərazisində suverenliyini bərpa eləyib. Dediyim odur ki, əgər ən çətin dövrlərdə Azərbaycan "907-ci düzəliş"in mövcudluğuna baxmayaraq inkişaf edibsə, problemlərini özü həll etməyi bacarıbsa, inkişaf etmiş qalib Azərbaycana bu cür düzəlişlər ciddi əngəl yarada bilməz. "907-ci düzəliş"in saxlanması bu gün ABŞ-ın özünün zərərinə işləyir. ABŞ-a qarşı Azərbaycan cəmiyyətində bir etimadsızlığa yol açır, münasibətlərdə istər-istəməz diskomfort yaradır. "907-ci düzəliş" Amerika-Azərbaycan münasibətlərinə mənfi təsir edir. Halbuki Azərbaycan Tramp administrasiyası ilə sıx əməkdaşlıq əlaqəsi qurmaq istəyir. Ona görə Vaşinqton ilk növbədə ABŞ-ın maraqlarını nəzərə alıb bu müddəanı ləğv etməlidir".

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli** isə bildirdi ki, "907-ci düzəliş"in qəbulu ədalətsiz bir qərar idi. ABŞ faktiki olaraq həmin dövrdə heç bir ciddi əsas olmadan və beynəlxalq hüquqa zidd olaraq Ermənistanın maraqlarını müdafiə etmişdi. Artıq Qarabağ problemi həll olunub və "907-ci düzəliş"in qəbulu üçün ABŞ-ın uydurduğu əsaslar da yoxdur. Buna görə də onun ləğvi məntiqli olardı: "Doğrudur, Azərbaycanın "907-ci düzəliş"in məhdudlaşdırdığı maliyyə yardımına ehtiyacı yoxdur. Ancaq bunun çox böyük siyasi mənası var. Səfirimiz Xəzər İbrahimin də qeyd etdiyi kimi, iki ölkə arasındakı münasibətlərə təsir göstərir. Əgər indi ABŞ bu qərarı ləğv etməsə, deməli, həm ədalətsizliyi davam etdirmiş olur, həm də ondan siyasi məqsədlər üçün istifadə niyyətini göstərir. Trampın bəyanatları ilə əməlləri arasında hər zaman kəskin fərqlərin olduğunu müşahidə edirik. Bu baxımdan onun dediklərinə o qədər də inanmaq olmaz. Ancaq Tramp hakimiyyəti gələcəkdə Azərbaycan və Türkiyə ilə münasibətlərini yaxşılaşdırmaq istəyirsə, mütləq "907-ci düzəliş"i ləğv etməlidir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 98 (8707) 6 iyun 2025

# Paşinyan müxalifətə keçə bilər - İrəvanda hazırlıq

## Ermənistanda 2026-cı il seçkiləri öncəsi savaş başlayıb; **Elçin Mirzəbəyli:** "Paşinyanın nüfuzu sürətlə aşağı düşsə də, alternativin olmaması onun lehinə işləyir"



**Ermənistanın baş naziri Nikol Paşinyanla kilsə arasında artan gərginliyin səbəbi medianın diqqətindədir. Müxalifətə yaxın erməni ekspertlər bir ağızdan iddia edirlər ki, bu hücumun yenidən məhz indi başlaması Paşinyan hökumətinin məqsədli planıdır. Bildirilir ki, kilsə elektoratı çoxdan Paşinyanla yollarını ayırıb və bu savaşla hökumət prinsipcə heç nə itirmir. Çünki kilsə Paşinyanı əvvəldən istəmir, onu əvvəl istefaya çağırsa da, sonradan Tavuş keşişi vasitəsilə hökumətə problem yaratmağa çalışdı.**

"Hraparak" qəzeti yazır ki, hakim "Mülki Müqavilə" Partiyası liderinin əsas məqsədi erməni Apostol kilsəsini öz siyasi maraqlarına tabe etdirməkdir: "Bu məqsədlə o, kilsəni nüfuzdan salır və onun bütün dünyada nüfuzunu azaldır, erməni kimliyinin sütunlarından birini məhv edir".

İddialar var ki, baş nazirin aqressiyasını artıran həm də reytinqinin biabırçı şəkildə aşağı düşməsidir. "Cəmiyyətin digər təbəqələri də Nikola etibar etmir. Paşinyanın hesablamaları çox praqmatikdir: əgər ictimaiyyətin müəyyən hissəsinin dəstəyini almaq mümkün deyilsə, onu, sadəcə olaraq, neytrallaşdırmaq lazımdır. Amma cəhdlərə baxmayaraq, Nikol 2026-cı il seçkilərində bu yarıtmaz siyasətinin nəticəsini hiss edəcək".

Erməni təhlilçilər ən müxtəlif tribunalardan bağırırlar ki, Paşinyan müxalifətə ciddi kömək edib, yəni qara kütləni aktivləşdirib. Müxalifət indi xalqı Paşinyana qarşı ayağa qaldırmalıdır və 2026-cı il seçkilərini gözləməməlidir. Bütün bu təhlillərdə erməni cəmiyyətini qorxudurlar ki, Paşinyan hakimiyyətdə qalsa Azərbaycanın şərtləri daxilində sülh sazişi imzalayacaq və qərbi azərbaycanlıların qayıtmasını şərait yaradacaq.

**Deputat Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bu mövzuda danışarkən bildirdi ki, Ermənistanda baş nazir Nikol Paşinyanla erməni Apostol kilsəsi arasında son zamanlar kəskinləşən qarşıdurma sadəcə, iki fərqli institutun toqquşması deyil: "Bu, həm də Ermənistanın daxili siyasi sisteminin dərin təbəqələrində özünü getdikcə daha qabarıq büruzə verən ziddiyyətlərin və dəyişən kimlik axtarışlarının əlamətidir. Kilsə və hakimiyyət arasında gedən mübarizə yalnız hüquqi və ya dini müstəvidə deyil, həm də geopolitik, ideoloji və strateji kontekstlərdə baş verir. Qismən yumşaq keçid tərəfdarı olan azsaylı erməni siyasətçilərinin təbirincə, desək, bu, sadəcə, ideoloji çarpışma deyil, kimlik və oriyentasiya uğrunda mübarizədir".

**E.Mirzəbəyli vurğuladı ki, 1995-ci ildə qəbul edilən və 2015-ci ildə yenidən işlənən konstitusiyada kilsəyə verilən xüsusi status Paşinyanın siyasi hakimiyyətə tam sahiblənmək hədəfinə uyğun gəlmirdi:** "Bunu Paşinyan müharibədən öncə, 2020-ci ildə belə dedikləri də təsdiqləyir: "Biz yeni Ermənistan qurmaq istəyiriksə, keçmişin kölgələrindən azad olmalıyıq. Kilsənin təsiri bu kölgələrin başında gəlir". Paşinyan yaxşı başa düşür ki, kilsə nəinki dini institutdur, o, həm də siyasi alətdir, ictimai rəyə təsir edən, eyni zamanda xarici mərkəzlərlə əlaqələri olan güc mərkəzidir. Məlumdur ki, erməni Qriqoryan kilsəsinin tarixi funksiyası təkcə dini ayinləri icra etmək olmayıb. O, erməni xalqının diasporla bağlarını qoruyan, xarici dövlətlərdə siyasi-lobbi gücünü təşkil edən bir platforma rolunu oynayıb. Erməni kilsəsi ilə bağlı araşdırmaları ilə tanınan, Moskva İctimai Elmlər Akademiyasının tədqiqatçısı Denis Dvornikovun sözlərinə görə, "Erməni kilsəsi Rusiya üçün yumşaq güc alətidir. Qafqazda geosiyasi balansın qorunmasında kilsə Moskvanın əlində olan "mədəni kart"dır".

Paşinyanın kilsəni sıxışdıraraq, ölkənin ictimai-siyasi həyatından kənara atması yalnız onun konstitusiya islahatlarının referendumla təsdiqlənməsindən asılıdır. Cəmiyyətin böyük hissəsinin kilsədən narazılığı olsa da, onun təsir gücü hələ də ciddi olaraq qalır. Kilsə ilə açıq müharibə Paşinyanı daxildə daha da təcrid edə bilər. Əgər Paşinyan bu mübarizəni udsa, Ermənistanın siyasi arxitekturası tamamilə dəyişəcək".

**Bəs hazırda kilsənin təsir imkanları nə qədərdir? E.Mirzəbəyli bu suala ələqədar da maraqlı şərhini bölüşdü:** "Kilsə xüsusilə yaşlı nəslin və bölgələrdə yaşayan əhalinin şüurunda hələ də ciddi nüfuza malikdir. Bundan əlavə, diaspor və Rusiyadakı erməni icmaları kilsəyə daha çox etibar edir. Məsələn, Parisdəki erməni sosioloq Şant Minasyanın qənaətinə görə, "diaspor üçün Eçmiədzin Ermənistanın ruhudur və bu ruhu dəyişmək asan deyil". Bu baxımdan, Eçmiədzin həm daxildə, həm də xaricdə mühüm təzyiq alətidir". Kilsə-revanşçı müxalifət ittifaqının Paşinyan üçün nə dərəcədə təhlükəli olduğuna gəldikdə isə, deputat qeyd etdi ki, bu ittifaq, xüsusən də 2026-cı il parlament seçkiləri ərəfəsində Paşinyan üçün sınaq ola bilər: "Kilsə revanşçı qüvvələri daha da radikallaşdıra və onların sosial bazanı müəyyən qədər genişləndirə bilər. Serj Sərkisyan, Robert Köçəryan və digər müharibə canilərinin daxil olduğu köhnə qvardiyanın yenidən dirçəlişi isə erməni cəmiyyətinin "keçmişə qayıtmaq" qorxusundan daha çox asılıdır. Paşinyanın nüfuzu sürətlə aşağı düşsə də, alternativin olmaması hələlik onun lehinə işləyir. Ermənistanın ictimai rəyini ifadə edən tanınmış publisist Ayk Gevorkyanın qənaətinə görə, "Paşinyan zəifləyir, amma rəqibləri cəmiyyət üçün artıq nostalji deyil, təhdid kimi görünür." Ola bilsin ki, Paşinyan-kilsə qarşıdurmasının nəticəsi Ermənistanın gələcəyini formalaşdıracaq. Zənnimcə, bu qarşıdurma, sadəcə, şəxsi münaqişə deyil, Ermənistanın gələcək konturlarını müəyyən edən ideoloji və geosiyasi mübarizənin bir hissəsidir".

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı isə hesab edir ki, Paşinyan və komandasının kilsəyə hücumu məqsədli aparılır:** "Hakimiyyət xalqın nifrət etdiyi Qarabağ klanını kilsə ilə eyniləşdirməklə "bir daşla iki quş" vurur. Gələcək seçkilərdə əhalinin bu iki qüvvəyə eyni gözlə baxılmasını təmin etmiş olur. Nüfuzdan düşmüş kilsə xadimləri faktoru Paşinyanın xeyrinə işləyəcək. Paşinyanın reytinqinin aşağı düşməsi faktı hələ heç nəyi həll etmir, çünki Ermənistan cəmiyyətində Paşinyan hakimiyyətinə dirəniş göstərəcək başqa qüvvə yoxdur. Gələcəkdə Paşinyanı devirmək üçün yenə kilsə- Qarabağ klanı ortaya çıxacaqsa, nəticə Baqrat Qalstanyanın hərəkatı kimi nəticəsiz olacaq..." **Q.Çaxmaqlı hesab edir ki, Paşinyan sülh prosesinin onun xeyrinə işləyəcəyinə əmindir və bütün gücü ilə Azərbaycanla sülh müqaviləsinin imzalanmasına çalışacaq:** "Bu olarsa, Paşinyanın müxalifətə keçməsinə ehtiyac qalmayacaq. Paşinyan parlamentdə yeni qüvvələr istəyir. Erməni cəmiyyətində seçki ərəfəsində belə qüvvələrlə Paşinyan arasında deyil, "köhnələr"lə yenilər - ortaya çıxarsa - arasında mübarizə gedəcək və ən yaxşı halda həmin qüvvələrlə Paşinyan tərəfdarları arasında anlaşmaya varıla bilər".

Yeri gəlmişkən, elə yazı çapa hazırlanarkən baş nazir Nikol Paşinyanın ermənilərin katolikosuna ünvanladığı növbəti Facebook "atəşi"nin sorağı yayıldı. Musavat.com bu barədə erməni mediasına istinadən xəbər verir. "Mənim fikrimcə, bütün dövrlərin katolikosu danılmaz bir nüfuz, ədalətin sarsılmaz müdafiəçisi, mübahisəsiz həqiqət mənbəyidir. Mən bütün ermənilərin katolikosunun həqiqətin boğucusu kimi çıxış edə biləcəyinə inana bilmirəm, bütün ermənilərin katolikosunun dilindən həqiqətdən başqa bir şey çıxa biləcəyinə inana bilmirəm", Paşinyan yazıb. Baş nazir növbəti dəfə katolikosu ifşa edib: "Qoy II Qaregin özü aydınlaşdırsın: o, subaylıq andını pozub, övladı varmı? Onun sürüsünün ondan həqiqəti eşitməyə haqqı var".

Paşinyanın 2026-cı il sınağından öncə bütün təhlükəli nöqtələri susdurmağa qərarlı olduğu görünür. Faktiki olaraq seçkiöncəsi savaş başlayıb. Amma Paşinyan hədəfinə çatacaqmı?..

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

### "Ya mənimlə yola davam edəcəksiniz, ya müharibə..."

**"Ermənistanın baş naziri Nikol Paşinyanın kilsəyə qarşı sərt ritorikasının səbəblərindən biri də Rusiya ilə bağlıdır. Paşinyan Rusiyadakı dairələrin erməni kilsəsi ilə əlaqələri genişləndirməsindən və bu ittifaqın gələn il parlament seçkisində ona qarşı istifadə ediləcəyindən narahatdır".**

Bakupost.az xəbər verir ki, bunu **politoloq Elxan Şahinoğlu** deyib. O bildirib ki, buna görə də Paşinyan bu ittifaqı gözdən salmaq kampaniyasına başlayıb:

"Paşinyan İkinci Qarabağ müharibəsindən sonra müxtəlif əngəlləri aşıb. Birinci dəfə ona qarşı silahlı qüvvələrin baş qərargah rəisi Onik Qasparyan qiyam qaldırmaq istədi. Qasparyan Paşinyana müraciət edərək, onun istefa verməsini tələb etdi. Qasparyanın arxasında da Rusiyadakı qüvvələr dayanırdı. Paşinyan Qasparyanı dərhal istefaya göndərməklə onu neytrallaşdırdı. Bundan sonra erməni kilsəsi Paşinyana qarşı Baqrat Qalstyan isimli keşişi irəli sürdü. O, İrəvana yürüşə başladı, çadırlar qurdu, etiraz mitinqləri təşkil etməyə çalışdı. Ancaq keşiş erməni cəmiyyətindən dəstək almadığına görə o da Paşinyana məğlub oldu. Bu dəfə Paşinyan gələcək rəqibinin kim olacağını gözləmədən radikal müxalifətə və kilsəyə qarşı mübarizəni gücləndirib. Baş nazirin məqsədi aydındır. Parlament seçkiləri yaxınlaşdıqca Paşinyan erməni cəmiyyətinə seçim etməyi məsləhət görür: "Ya mənimlə yola davam edəcəksiniz və bu, Azərbaycanla sülhü gətirəcək, ya da müharibə istəyən radikal müxalifəti və kilsəni dəstəkləyəcəksiniz, bu halda həm müharibə, həm də ərazi itkisi ilə üzləşəcəksiniz".

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# Azərbaycanda ömür qısalır - dünya üzrə 166-cı yerimiz

## Ekspert: "Ölkədə insanlar orta hesabla 70 yaşa belə çatmırsa, deməli, bu, təkcə tibbi məsələ deyil..."

**Azərbaycanda gözlənilən ömür uzunluğu dünyada ən aşağı səviyyələrdən biri olaraq qeydə alınıb. "Global Relocate" beynəlxalq təşkilatının yeni hesabatına əsasən, Azərbaycan 69.4 il göstəricisi ilə 197 ölkə arasında 166-cı yerdə qərarlaşıb. Bu göstərici ilə ölkəmiz ömür uzunluğu üzrə nəinki dünya üzrə, hətta regionda da ən geridə qalan ölkələrdən biri hesab olunur.**

Hesabatda göstərilir ki, ən yüksək gözlənilən ömür uzunluğu Monakoda qeydə alınıb - 85.9 il. Ən aşağı göstərici isə 52.5 illə Nigeriyaya məxsusdur.

Azərbaycanla eyni göstərici (69.4 il) Rusiya və Qazaxıstanda da qeydə alınıb. Onlardan sonra gələn Türkmənistanda isə bu rəqəm bir qədər aşağı - 69.3 il olaraq müəyyən edilib.



BMT-nin İnkişaf Proqramı bu statistik göstəriciləri müxtəlif yaş qruplarında ölüm hallarını analiz etməklə hesablayır. Gözlənilən ömür uzunluğu səhiyyə xidmətlərinin keyfiyyəti, sosial müdafiə sistemi, təhsil səviyyəsi və ümumi yaşayış standartlarının göstəricisi kimi qəbul olunur.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** "Yeni Müsavat"a deyib ki, Azərbaycan dünyada gözlənilən ömür uzunluğuna görə nəinki inkişaf etmiş ölkələrdən, hətta region ölkələrinin əksəriyyətindən də geri qalır: "Ömrün uzunluğu yaşam keyfiyyətinin, səhiyyə sisteminin effektivliyinin, əhalinin rifah səviyyəsinin, təhsil və məlumatlılıq səviyyəsinin barometridir. Əgər ölkədə insanlar orta hesabla 70 yaşa belə çatmırsa, deməli, bu, təkcə tibbi məsələ deyil, həm də iqtisadi və sosial problemidir. Əhalinin gözlənilən ömrü aşağıdırsa, deməli, səhiyyə sistemi ya yetərsizdir, ya da əlçatmazdır. Azərbaycanda son illərdə səhiyyəyə külli miqdarda vəsait ayrılsa da, real nəticələr bunu təsdiq etmir. Özəl klinikalar çoxalır, amma əhalinin böyük hissəsi bu xidmətlərdən istifadə edə bilmir. Dövlət xəstəxanalarında isə keyfiyyətli xidmət hələ də istisna haldır. Sosial müdafiə sistemi də oxşar vəziyyətdədir. Pensiya yaşı artırılır, amma orta ömür uzunluğu 70-ə çatmır. Bu nə deməkdir? Vətəndaşın pensiya yaşına qədər yaşaya bilməməsi gözardı edilir. Başqa sözlə, vətəndaş ömrü boyu işləyir, ödəyir, amma sonda dövlətdən haqqını ala bilmir".

**Natiq Ələsgərov deyib ki, Birləşmiş Millətlər Təşkilatının da qeyd etdiyi kimi, gözlənilən ömür uzunluğu təkcə səhiyyə yox, həm də sosial rifahın, təhsilin və ümumi həyat səviyyəsinin göstəricisidir:** "Gəlin etiraf edək ki, Azərbaycanda orta statistik ailənin yaşayış səviyyəsi, gəlir imkanları, stress səviyyəsi, qida keyfiyyəti və psixoloji rifahı ürəkaçan deyil. Bunların hamısı insan orqanizminə tədricən təsir edən faktorlardır. Ölüm halları, xüsusilə gənc yaşda baş verənlər, əmək miqrasiyası nəticəsində ölkədən çıxanların statistikada "itirilməsi", səhiyyədə diaqnoz və məlumat sisteminin problemləri reallığın ortaya qoyulmasına xidmət etmir".

**Natiq Ələsgərov deyib ki, Azərbaycanla eyni göstərici Rusiyada və Qazaxıstanda da müşahidə olunur. Bu ölkələr də postsovet travması, sistemli problemlərlə üz-üzədir:** "Gürcüstanda və ya Ermənistanda bu göstəricilər bir qədər yaxşıdır. Niyə biz hətta Türkmənistanla "burun-buruna" gedirik? Azərbaycanda sistemli islahatlar aparılmalıdır. Vətəndaşın real rifahı prioritet götürülməlidir. Ölkədə ömrün qısalması həyəcan zəngidir. Düzdür, hər kəs öz sağlamlığına cavabdehdir, amma dövlət də vətəndaşına cavabdehdir. Əgər bu ölkədə ömrün uzunluğu 69 ilə qədər qısalıbsa, bu, təkcə genetika və ya həyat tərzi ilə izah oluna bilməz. Bu, sosial durumun bərbadlığının nəticəsidir".

**Sosioloq Əhməd Qəşəmoğlu** "Yeni Müsavat"a deyib ki, əgər bir cəmiyyətin insanları uzun yaşamırsa, bu, təkcə bioloji yox, həm də mənəvi-ictimai intihardır: "Çünki ömrün uzunluğu təkcə tibbin və ya genetikanın deyil, həm də ruhun, ümidin, ictimai dəyərlərin göstəricisidir. Azərbaycanın "Global Relocate" hesabatında 69.4 il gözlənilən ömür uzunluğu ilə 166-cı yerdə qərarlaşması faktı bizi bir daha düşündürməlidir. Bu rəqəm adi bir statistik göstərici deyil. Bu, insan kapitalı dəyərsizləşdirilən bir toplumun səssiz fəryadıdır. İnsan ömrü onun bioloji varlığı qədər sosial mənasını da daşıyır. Uzun yaşamaq yalnız nəfəs almaq deyil, bu, dəyərli yaşamaq, yaşadığı cəmiyyətin mənəvi gücündən qidalanmaqdır. Əgər bu cəmiyyətin fərdi ömrünü sevə bilmirsə, deməli, biz hələ cəmiyyət olmağı tam bacarmamışıq".

**Sosioloq deyir ki, Azərbaycanda son onilliklərdə baş verən dəyərlərin aşınması, kollektiv yaddaşın pozulması, ailə institutunun zəifləməsi və vətəndaş-məmur münasibətləri insanın iç dünyasına və ömrünə təsir edir:** "İnsan yalnız orqanizmi ilə yox, ruhu ilə də yaşayar. Bu ruh isə hazırda yorğundur. Bəlkə də bir çox insan bu ömrün qısalmasını qida rasionu, ekologiya və ya səhiyyə ilə izah etməyə çalışacaq. Bəli, bunlar da mühümdür. Amma daha dərin səbəb sosial depressiyadır. Ümumi ümidsizlik var. Gənc gələcəyinə inanmır, yaşlı isə ötənlərə ağlayır. İctimai durum insana nəfəs deyil, yük verir. Sosial ədalətsizlik, işsizlik, sistemsizlik, məmur toxunulmazlığı, əxlaqi boşluq və mənəvi ifliclik səssizcə insanı içdən yeyən amillərdir. Bu, fiziki intihar deyil, mənəvi tərk etmə halıdır. İnsan bir gün qərara gəlir ki, bu durumda ömrüm nəyə yarayır?"

**Sosioloq mədəniyyətin və mənəviyyatın rolunu da qeyd edir:** "Mədəni irsi, zəngin folkloru, dərin mənəvi kökləri olan bir xalq bu qədər qısa ömürlə niyə razılaşmalıdır? Çünki biz bu mirası yaşatmırıq. Cəmiyyət bəlkə də ən böyük səhvini burada edir. İnsanı sadəcə "fəhlə", "vergi ödəyicisi", "statistik rəqəm" kimi görür. Biz insana mənəvi yük yükləmirik, ona ümid vermirik. Məktəb tənqidə qapalıdır, ailə maddi çətinlik içindədir, televiziya şoudan ibarətdir, ictimai müzakirə isə susqundur. Bu şəraitdə insan niyə uzun yaşasın ki? Əslində bu 69.4 illik ömür təkcə az deyil, həm də tələsik yaşanmış bir ömürdür. İnsanlar nəfəs almadan yaşayır. Kreditlərlə, işsizliklə, təzyiqlə, riyakarlıqla, sosial maskalarla ömür sürür. Bu ömür insanın özü ilə dialoquna imkan vermir. Ona görə də bu rəqəmi dəyişmək üçün yalnız tibbi islahat yetərli deyil. Biz ictimai ömrü dəyişməliyik. İnsan özü üçün yox, dəyər üçün yaşamalıdır. Cəmiyyət insanı təkcə işlədən yox, düşünməyə, sevməyə və özünü axtarmağa təşviq edən bir sistemə çevrilməlidir. Əgər bir xalqın ömrü qısalırsa, bu, yaddaşın və ruhun susdurulmasıdır".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



## Eyni vaxtda bir neçə işdə çalışa biləcəyik

**"Saatlıq əməkhaqqı sisteminin tətbiqi, eyni dəyərli əməyə görə bərabər maaşın ödənilməsi sistemlərinə keçid üçün Əmək Məcəlləsinə ediləcək dəyişiklik hökumətdə razılaşdırılmaq məqsədilə Nazirlər Kabinetinə təqdim olunub".**

Bakupost.az xəbər verir ki, bunu **deputat Vüqar Bayramov** sosial şəbəkə hesabındakı paylaşımda bildirib.

Saatlıq əməkhaqqı mexanizminin tətbiqi vətəndaşlara nə vəd edir?

Bu suala aydınlıq gətirən deputat qeyd edib ki, yeni mexanizmin tətbiq olunması, əməkhaqlarının aylıq deyil, saatlıq olaraq hesablanmasına gətirib çıxaracaq:

"Saatlıq əməkhaqqının hesablanması bir tərəfdən vətəndaşlarımıza işlədikləri müddətin saatlar üzrə hesablanması və onların əməkhaqlarında artımların reallaşmasına gətirib çıxara bilər. Eyni zamanda vətəndaş saatlar üzrə differensial olaraq bir deyil, bir neçə iş yerində çalışa bilər. Bu da onun əməkhaqqının artmasına gətirib çıxaran faktorlardan olacaq. Beynəlxalq təcrübəni nəzərə alsaq, bu qeyri-iş günlərində və iş saatlarından sonra çalışan vətəndaşların əməkhaqlarında xüsusi əmsalların tətbiq edilməsinə və daha çox əməkhaqqı almasına səbəb ola bilər".

**Parlamentarinin sözlərinə görə, artıq bununla bağlı yeni mexanizm hazırlanır:** "Bütövlükdə bu, yeni və inkişaf etmiş ölkələrdə tətbiq edilən bir mexanizmdir. Bunun özəlliyi ondan ibarətdir ki, vətəndaşların əməkhaqlarının və əməyinin daha yüksək qiymətləndirilməsi real olaraq həyata keçirilsin. Bu baxımdan yeni mexanizmin tətbiq edilməsi əməkhaqlarının artırılmasına gətirib çıxara bilər. Təbii ki, bu zaman meyarlar müəyyənləşəcək. Eləcə də saatlıq əməkhaqqı üçün də minimumlar məlum olacaq. Saat üçün minimum ödənişlər həm də aylıq əməkhaqqı üçün minimum ödənişlərin məbləğinə uyğunlaşdırılmalıdır və daha yüksək olmalıdır".

Artıq yeni mexanizmin hazırlanması prosesi gedir. Son mərhələ razılaşdırmalardan sonra bunun nə zaman tətbiq ediləcəyi bəlli olacaq. Bütün hallarda bu mexanizmin tətbiq olunması əməkhaqqı sistemində bir yenilikdir".

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# "Qırmızı attestat" - sovetdən qalma təltif, yoxsa...

## Ekspert: "Düşünürəm ki, gələcəkdə fərqləndirmə mexanizmi dəyişdirilə bilər"

**Azərbaycanda orta məktəbi fərqlənmə ilə bitirən, akademik və davranış baxımından nümunəvi sayılan şagirdlərə verilən "qırmızı attestat" həm rəmzi, həm də praktik əhəmiyyət daşıyan bir sənəddir. Bu sənəd bir tərəfdən yüksək təhsil nailiyyətlərini təsdiqləyən formal sənəd rolunu oynayırsa, digər tərəfdən şagirdin illərlə göstərdiyi əzmkarlığın, məsuliyyətin və intizamın dövlət tərəfindən tanınması və qiymətləndirilməsi anlamına gəlir.**

Bu fərqləndirmə attestatının kökləri sovet dövrünə - 1940-cı illərə gedib çıxır. SSRİ-nin bütün respublikalarında olduğu kimi, Azərbaycanda da yalnız "5" qiymətlərlə təhsilini başa vuran şagirdlərə "qırmızı" rəngli xüsusi sənəd - fərqlənmə attestatı təqdim olunurdu. Bu sənəd həm akademik nəticələrin, həm də nümunəvi davranışın göstəricisi sayılırdı.



Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra təhsil sistemində genişmiqyaslı islahatlara start verildi. Sovetdən miras qalan bir çox anlayış və mexanizm dəyişdirilsə də, "qırmızı attestat" sistemi müəyyən yenilənmələrlə qorunub saxlanıldı. Xüsusilə 2010-cu illərdən sonra bu sənədin verilmə meyarları daha da dəqiqləşdirildi və şəffaflaşdırıldı. Artıq attestatın təqdim olunması zamanı yalnız məktəb daxilindəki qiymətlər deyil, həm də Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış imtahanlarının nəticələri, şagirdin ümumi davranış səviyyəsi və ictimai fəallığı da nəzərə alınır.

"Qırmızı attestat" almaq üçün şagirdin bütün siniflər üzrə yalnız "əla" qiymətlərlə oxuması kifayət etmir. O, eyni zamanda buraxılış imtahanlarında yüksək nəticələr göstərməli, məktəbdə nümunəvi davranış sərgiləməli və heç bir intizam pozuntusuna yol verməməlidir.

Bəzən "qırmızı attestat"a tənqidi yanaşmalar da səslənir. Müasir təhsil sistemində əsas meyarın imtahan nəticələri olduğunu düşünənlər bu sənədi "formal rəmz" kimi qiymətləndirirlər. Ancaq real vəziyyət göstərir ki, bu sənəd gənclər arasında sağlam rəqabət və motivasiya mühiti yaradır. Bir sıra hallarda isə bu attestata sahib olan məzunlar ali məktəblərə qəbul zamanı psixoloji üstünlük qazanır, bəzən bəzi universitetlərin daxili təqaüd proqramlarında onlara üstünlük verilir.

**Təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, qırmızı attestat və qırmızı diplom anlayışları hazırda Azərbaycanda hüquqi baxımdan formaldır və onların ali təhsilə qəbulda və əmək bazarında verdiyi üstünlüklər praktiki olaraq mövcud deyil: "Halbuki sovet dövründə bu sənədlər konkret hüquqi nəticələr doğururdu - məsələn, qırmızı attestat və ya qızıl medal alan məzunlar ali məktəblərə imtahansız qəbul oluna bilərdi. Bu modeldə məktəbdəki yüksək akademik göstəricilər ali təhsil imkanlarını birbaşa müəyyən edirdi. Lakin bu sistem 1992-ci ildən sonra hüquqi əsasını itirdi və yeni qəbul mexanizmləri - xüsusilə vahid mərkəzləşdirilmiş test imtahanları tətbiq olunmağa başlandı.

"Təhsil haqqında" Qanunun 19.1-ci maddəsində deyilir ki, "Ümumtəhsil pilləsini başa vurmuş şəxslərə təhsil sənədi verilir". Lakin bu sənədin "fərqlənmə ilə" verilməsi yalnız məktəbin daxili qiymətləndirmə sisteminin nəticəsidir və ali təhsil müəssisələrinə qəbul zamanı heç bir hüquqi və ya bal üstünlüyü vermir. Dövlət İmtahan Mərkəzinin mövcud qəbul qaydaları da bu fərqləndirməni nəzərə almır. Bu baxımdan, fərqlənmə attestatı və ya diplomu simvolik fərqləndirmə xarakteri daşıyır və onun hüquqi nəticəsi yoxdur".

**Ekspert deyir ki, Əmək Məcəlləsində də qırmızı diplomla bağlı əlavə güzəşt və ya üstünlük tanınmır:** "İşə qəbul zamanı əsas meyar işçinin ixtisası, bilik və bacarığı, təcrübəsi və müsahibə nəticələridir. Bu səbəbdən, ali təhsil diplomunun "fərqlənmə ilə" verilməsi lük yaratmır. Statistikaya əsaslansaq, 2023-cü ildə Azərbaycanda ali məktəbləri fərqlənmə diplomu ilə bitirənlərin sayı 12,7% olub. Lakin bu göstəricinin həmin məzunların işə qəbul olunma faizinə birbaşa təsiri qeydə alınmayıb. Eyni zamanda Dövlət Məşğulluq Agentliyinin hesabatlarına əsasən, fərqlənmə diplomu olan məzunlarla adi diplomla bitirənlər arasında məşğulluq səviyyəsində nəzərəçarpacaq fərq yoxdur.

Bu məsələdə ən ciddi boşluq qırmızı attestat və diplomun funksional olaraq sistemə inteqrasiya edilməməsidir. Əgər belə bir fərqləndirmə mövcuddursa, bu zaman onun hüquqi çərçivəsi də müəyyən olunmalıdır. Əgər ali məktəblərə qəbulda və ya dövlət qulluğunda bu sənədlərin heç bir hüquqi təsiri yoxdursa, onda bu fərqləndirmənin yalnız psixoloji təsir yaratmaqdan başqa bir dəyəri qalmır. Halbuki mükəmməl qiymətlərlə təhsil alan şagird və tələbələrə əlavə stimullar verilməsi təhsildə motivasiyanı artıran mexanizmlərdən biri ola bilərdi".

**K.Əsədovun sözlərinə görə, dünya təcrübəsində fərqlənmə diplomları bəzi ölkələrdə real üstünlük verir:** "Məsələn, Almaniyada "mit Auszeichnung" - fərqlənmə ilə bitirmə, magistratura və ya doktoranturaya qəbulda üstünlük yaradır. ABŞ-da "cum laude", "magna cum laude" və "summa cum laude" kimi fərqləndirmələr məzunun akademik nailiyyətlərini göstərir və CV-də ciddi rol oynayır. Finlandiya və Estoniyada isə orta məktəbi fərqlənmə ilə bitirənlər üçün ali məktəblərə qəbulda minimal balla daxil olma imkanları nəzərdə tutulur. Azərbaycanda isə bu fərqləndirmənin heç ali məktəbin daxilində belə ciddi təsiri yoxdur".

**Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov qəzetə açıqlamasında bildirib ki, qırmızı diplomun və fərqlənmə attestatının hazırkı dövrümüzdə xüsusi bir üstünlüyü yoxdur**: "Çünki indi əmək bazarında işə götürən müraciət edən şəxsin bilik və bacarıqlarını dəyərləndirir. İşə qəbul istər dövlət, istərsə də özəl sektorda xüsusi imtahan edilərək həyata keçirilir. Ali təhsil müəssisəsinə qəbul zamanı da qırmızı attestatın hansısa bir üstünlüyü yoxdur. Qırmızı diplom və fərqlənmə attestatı motivasiya yaradan və stimullaşdırıcı addımdır. Göstərir ki, bu şəxs konkret oxuduğu dövrdə digərlərindən fərqlənib. Hesab edirəm ki, bu belə də olmalıdır".

**Təhsil eksperti Elçin Əfəndi deyir ki, indiki məqamda attestatın və diplomun yüksək göstəricilərə sahib olması yalnız hansısa digər təhsil pilləsinə müsabiqə zamanı nəzərə alınır:** "Bakalavr, daha sonra orta ixtisas təhsili müəssisələrinə subbakalavr pilləsinə və yaxud da ali təhsil müəssisəsinə magistr təhsili üçün qəbulda eyni balı toplayan müxtəlif namizədlərin bir yerə müraciətləri zamanı onların diplom və ya attestatlarına baxırlar. Kimdə daha yüksəkdirsə, həmin şəxs qəbul olunur. Lakin burada konkret olaraq fərqlənmə diplomunun olması əlavə imkan yaratmır. Düşünürəm ki, gələcəkdə fərqləndirmə mexanizmi dəyişdirilə bilər".

❑ **Səhanə RƏHİMLİ,**
**Musavat.com**



## Özəl məktəb müəllimləri də sertifikasiyaya cəlb oluna bilər

**Azərbaycanda bu ay müəllimlərin sertifikasiya imtahanı keçiriləcək. Elm və Təhsil Nazirliyinin məlumatına görə, bu il təşkil olunacaq sertifikatlaşdırılma prosesinə kimya, biologiya, fizika, coğrafiya, informatika fənlərini tədris edən müəllimlər ilk dəfə cəlb olunacaqlar.**

18-25 iyun tarixlərində keçiriləcək imtahanlarda, həmçinin indiyədək sertifikatlaşdırmadan keçməyən ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, fransız dili və s.) müəllimləri də prosesdə iştirak edəcəklər.

Qeyd edək ki, sertifikasiya prosesi yalnız dövlət məktəblərində dərs keçən müəllimlərə şamil edilir. Özəl məktəblərin tədris prosesində iştirak edən müəllimlər isə bu prosesə cəlb edilmir.

Məlumata görə, məsələ ilə bağlı "AzEdu.az"a açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Mehriban Vəliyeva bildirib ki, özəl müəssisələrin müəllimləri də sertifikatlaşma prosesinə cəlb olunmalıdır, çünki müəllimin davamlı inkişafı vacib amildir.

"Sertifikatlaşdırma müəllimin öz üzərində davamlı işləməsi, nəticəsini yaxşılaşdırması üçün ciddi stimul yaradır. Davamlı öyrənmə mühiti müəllim-şagird-ailə üçbucağının əsas missiyasıdır. Burada müəllim amili peşəkar, motivasiya edən, üfüq açan və daha yeni öyrənmə vasitələri ilə şagirdlərini gələcəyə hazırlayan şəxs kimi xarakterizə olunur. Müəllimlərin bilik və bacarıqlarının sertifikasiya vasitəsilə ölçülməsi öyrənmə prosesində məhz bu hədəflərə çatmanı ifadə edir", - deputat qeyd edib.

Müəssisələrin qiymətləndirilməsinə gəldikdə isə Mehriban Vəliyeva bildirib ki, müvafiq meyarlara görə bütün müəssisələrin qiymətləndirilməsi təhsil keyfiyyətinin ölçülməsi baxımından əhəmiyyətlidir: "Belə monitorinqlər TKTA tərəfindən aparılır və nəticələrə görə dəstəkverici tədbirlər görülür. Müəllimlərin və təhsil müəssisələrinin qiymətləndirilməsi üçün meyarların davamlı olaraq təkmilləşdirilməsi diqqətdə saxlanmalı, proses nəticəyönümlü olmalıdır. Düşünürəm ki, bu istiqamətdə də işlər aparılır".

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025



## Nazirlik əməkdaşı iş başında öldü

**Fövqəladə Hallar Nazirliyinin əməkdaşı anbar soyuducusunun müayinəsi zamanı faciəli şəkildə ölüb.**

Oxu.az xəbər verir ki, hadisə Biləsuvar rayonunun Arazbarı kəndi ərazisindəki saxlama kamerasında baş verib.

FHN-in "Azərdövlətsənayelayihə" Dövlət Layihə İnstitutunun əməkdaşları kənd təsərrüfatı məhsullarının saxlanılması üçün nəzərdə tutulan soyuducu kamerada müayinə-yoxlama tədbirləri həyata keçirib.

Yoxlama zamanı saxlama kamerasının tavan atmalarını müayinə etmək lazım olub. Əməkdaşların xahişi ilə orada işləyən Yusif adlı şəxsdən xahiş ediblər ki, anbardakı avtokarı idarə etməklə mütəxəssisi anbarın tavanı istiqamətində qaldırsın. Yusif adlı şəxs onların xahişini yerinə yetirməyə razılaşıb və avtokarı işə salıb. FHN-in mütəxəssisi Fövzi Quliyev avtokarın çəngəlvari hissəsinə çıxıb və sürücüdən onu yuxarı qaldırmağı xahiş edib.

Avtokar sürücüsü mütəxəssis olan çəngəli müayinə yeşikləri ilə birlikdə anbarın tavan hissəsinə qaldırarkən yeşiklərdən biri aşıb və nəticədə mütəxəssis yüksəklikdən yıxılıb ölüb.

Faktla bağlı cinayət işi başlanılıb və iş məhkəməyə göndərilib.

Biləsuvar Rayon Məhkəməsinin hökmü ilə sürücü iki il azadlıqdan məhrum edilib. O, cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkəcək.

Xatırladaq ki, FHN mütəxəssisi F.Quliyev həmçinin Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tədris işləri üzrə dekan müavini olub.



# Sənədsiz evlərlə bağlı proses başlayır

## Ekspert: "Qanunsuz tikilinin olduğu ərazilərin yerli icra orqanları hökumətə müraciət etməlidir"

**Milli Məclisin sonuncu plenar iclasında sənədsiz evlərlə bağlı problem yenidən gündəmə gətirilib. Məsələ bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2024-cü il üzrə məruzəsinin müzakirəsi zamanı qaldırılıb. Bildirilib ki, sənədsiz evlərin sənədləşdirilməsi uzun illərdir cəmiyyəti narahat edən ciddi problemlərdən biridir və bu sahədə təcili tədbirlərin görülməsinə ehtiyac var.**

Mövzu ilə bağlı **Milli Məclisin deputatı Vüqar Bayramov** News24.az-a açıqlamasında qeyd edib ki, bu istiqamətdə həm qiymətləndirmə, həm də müvafiq dövlət qurumlarında müzakirə prosesi uzun müddətdir aparılır: "Əmlak məsələləri üzrə Dövlət Xidmətində sənədsiz evlərin sənədləşdirilməsi ilə bağlı işlər görülür və ilkin qiymətləndirmələrə əsasən, 450 mindən çox sənədsiz evin mövcud olduğu bildirilir. Bunların böyük bir hissəsi Bakı şəhərində yerləşir. Bununla yanaşı, təhlükəli və qeydiyyatsız ərazilərdə, xüsusilə də neft buruqları və nəqliyyat infrastrukturuna yaxın zonalarda yerləşən evlərin sayının təxminən 70 min olduğu qeyd olunur. Bu ərazilər təhlükəsizlik baxımından daha ciddi risk daşıdığı üçün onların sənədləşdirilməsi prosesi daha həssas yanaşma tələb edir.

**Deputat vurğulayıb ki, məsələ hazırda hökumətin diqqətindədir və sənədsiz evlərin rəsmi qeydiyyata alınması, vətəndaşların mülkiyyət hüququnun tanınması əsas prioritetlərdən biri sayılır. Onun sözlərinə görə, bu istiqamətdə hüquqi və texniki prosedurların sadələşdirilməsi və daha şəffaf mexanizmlərin tətbiqi vacibdir:** "Yaxın vaxtlarda bu evlərin qeydiyyatı sürətləndirilməli, vətəndaşların əmlak üzərində qanuni hüquqları tanınmalı və rəsmiləşdirilməlidir. Bu həm sosial ədalətin təmin olunmasına, həm də şəhərsalma və infrastruktur planlamasında dəqiqliyin artırılmasına xidmət edəcək".

Sənədsiz evlər problemi hər dəfə gündəmə gətirilir, amma hələ də yoluna qoyulmayıb. Bu məsələ niyə bu qədər uzanır? Məsələn, Gürcüstanda bu problem "Əmlak amnistiyası" adı ilə artıq öz həllini tapıb.

**Əmlak məsələləri üzrə ekspert Elnur Azadov** "Yeni Müsavat"a mövzunu şərh edərkən müstəqillikdən öncəki illərdə olan vəziyyətə diqqət çəkdi. Ekspert qeyd etdi ki, hökumət kütləvi şəkildə salınan tikililərə göz yumurdu: "SSRİ süqut etdikdən sonra Azərbaycanda 1 milyona yaxın qaçqın və məcburi köçkünlərlə əlaqədar qanunsuz tikililərin sayı artdı. 2000-ci illərdə artıq bələdiyyə torpaqları anlayışı yarandı. Sözügedən torpaq sahələri vətəndaşlara həyətyanı sahə kimi satılıb. Bir qisim torpaq isə kənd təsərrüfatı təyinatlı torpaq kimi rəsmiləşdirilib. Vətəndaşlar hər iki növ torpaq sahəsində fərdi evlər tikiblər. Beləliklə, tikililərin sayı dəfələrlə artıb. Daha sonra böyük şəhərlər və onların ətrafında özbaşına zəbt olunan, tikilən, yaxud bəzi sərəncamlar və razılaşmalar əsasında verilən digər əmlaklar yaranıb. Məsələn, kənd və qəsəbə sovetləri vaxtilə müəyyən sənədlər veriblər. Sonradan yaradılan yerli icra strukturlarında- kənd, qəsəbə idarəetmə orqanları tərəfindən verilən sərəncamlar olub. Müxtəlif sənədlər olduğu üçün problemi yalnız əmlak amnistiyası ilə həll etmək mümkün deyil. Prezident İlham Əliyev 2015-ci ildə "Daşınmaz əmlakın qeydiyyatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalanıb. Bu fərman, daşınmaz əmlakın qeydiyyat prosesini sadələşdirmək, sürətləndirmək və şəffaflaşdırmaq məqsədini güdürdü. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti fərmanda qeyd olunan sənədlərə əsasən vətəndaşların mülkiyyət hüququnu tanıyır. Hazırkı hüquqi normativlərə görə sənədi olmayan əmlaklar tanına bilməz. İlk növbədə qanunvericilikdə bununla bağlı dəyişiklik edilməlidir. Çox güman ki, ilkin mərhələdə SSRİ dövründə əldə olunmuş sənədlər əsasında mülkiyyətlərin tanınması istiqamətində iş aparılacaq, siyahı genişlənəcək, lakin bunun üçün hüquqi normativlər dəyişilməlidir".

**Qanunsuz tikililərin tanınması ilə bağlı sualı şərh edən ekspert bildirdi ki, bununla bağlı müxtəlif yanaşmalar və istiqamətlər olacaq:** "Prezidentin "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi" qaydaları ilə bağlı Fərmanı var. Lakin vətəndaşlar fərdi qaydada müraciət edə bilmirlər. Müraciətin əsaslandırılması üçün ərazinin planlanması nəzərə alınır. Azərbaycan Respublikasının "Şəhərsalma və Tikinti Məcəlləsi"nə əsasən, 5 ildən bir ölkə üzrə ərazilərin şəhər planlamasına görə dəyişilməsi məsələsinə baxılmalıdır. Hazırkı qanun bu prosesin başlamasına əsas verir. Kütləvi şəkildə qanunsuz tikilinin olduğu ərazilərin yerli icra hakimiyyəti orqanları hökumətə müraciət etməlidir. Bu istiqamətdə iş aparılıb-aparılmadığı qeyri-müəyyəndir. Qeyd etmək lazımdır ki, həmin ərazilərdə yaşayan vətəndaşlar üçün, yəni söhbət kənd təsərrüfatı təyinatlı özəl və icarədə olan mülkiyyətə sahib vətəndaşlardan gedir, onların probleminin həll olunması üçün fürsət yaranıb. Lakin bu fürsətdən hansı dərəcədə istifadə olunduğu hələ ki bəlli deyil. Fikrimcə, aidiyyəti dövlət qurumları işə başlamaq üçün tapşırıq gözləyirlər. Qanunazidd ərazilərdə tikilən yaşayış məntəqələri-kommunikasiya, dəmir yolu xətlərinin keçdiyi və s. ərazilərə isə heç bir halda amnistiya olmayacaq".

**Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Saxta pulların sayı artıb

**Ötən il Mərkəzi Banka dövriyyədən 5,73 milyard manat pul nişanı mədaxil edilib, 5,86 milyard manat pul nişanı isə məxaric olunub.**



Mərkəzi Bank xəbər verir ki, tədavüldə nağd pul kütləsi ilin əvvəli ilə müqayisədə 0,76 faiz (131 milyon manat) artaraq ilin sonuna 17,44 milyard manat təşkil edib. Hazırda milli valyuta üzrə ehtiyatlar 8,9 milyard manat təşkil edir ki, bu da iqtisadiyyatın 2026-cı ilin sonunadək tələbatının ümumilikdə ödənilməsi üçün yetərlidir.

Mərkəzi Bank tərəfindən 2024-cü il ərzində yenilənmiş 1 və 3 qəpiklik metal pul nişanları tədavülə buraxılıb. 1 və 3 qəpiklik metal pul nişanları daha öncə yenilənmiş 5, 10, 20 və 50 qəpiklik metal pul nişanlarına uyğun olaraq arxa tərəfinin dizaynına Azərbaycan Respublikasının Dövlət Gerbi, eləcə də istehsal ili əlavə edilməklə yenilənmişdir. Yenilənmiş 1 və 3 qəpiklik metal pul nişanları tədavüldə olan eyni nominallı pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq.

Pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin təşkili və hüquq mühafizə orqanları ilə koordinasiya diqqət mərkəzində saxlanılıb. Hesabat ilində milli valyutada 379 ədəd (32611 manat) saxta pul nişanı, xarici valyutada isə 503 ədəd saxtakarlıq əlamətləri müəyyən edilmiş pul nişanı aşkarlanaraq tədavüldən çıxarılıb və müvafiq tədbirlərin görülməsi üçün hüquq-mühafizə orqanlarına təqdim edilib.

Əhalidə olan yararsız pul nişanlarının ekspertizaya qəbul edilməsi və dəyişdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən Bakı şəhərində və ərazi idarələrində yaradılmış nağd pul ofisləri fəaliyyətini davam etdirib.

Hesabat ili ərzində əhalidən 6,7 milyon manat (155,2 min ədəd) pul nişanı qəbul edilərək dəyişdirilib.

Bütövlükdə Mərkəzi Bank tərəfindən ölkə iqtisadiyyatının ayrı-ayrı nominallar üzrə nağd pula olan tələbatının ödənilməsi, milli valyuta üzrə ehtiyatların optimal və təhlükəsiz idarə olunması, tədavülün yüksək keyfiyyətli pul nişanları ilə təmin edilməsi kimi prioritetlər diqqət mərkəzində saxlanılıb.

# Adam öldürən qazi ilə bağlı yeni təfərrüat

## Elşən Ağayevin yaşadığı evdən "Makarov" tipli tapança maddi sübut kimi götürülüb

**Lerikdə bir neçə gün əvvəl itkin düşən və meyiti çay dərəsindən tapılan 35 yaşlı Şahin Musa oğlu Şərifovun qətlə yetirilməsi müəyyən edilib.**

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Lerikdəki qətllə bağlı birgə məlumat yayıb. Məlumatda deyilir:

"Lerik Rayon Polis Şöbəsi və prokurorluq əməkdaşlarının birgə fəaliyyəti nəticəsində mayın 31-də itkin düşmüş 1990-cı il təvəllüdlü şəhər sakini Şahin Şərifovun qəsdən öldürüldüyü müəyyən edilib.

Birgə həyata keçirilmiş əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində 1991-ci il təvəllüdlü Elşən Ağayevin mayın 31-də Lənkəran-Lerik avtomobil yolunun 51-ci kilometrliyində özünə məxsus avtomobildə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı "Makarov" tipli tapança ilə atəş açaraq Şahin Şərifovu qəsdən öldürdükdən sonra avtomobilini Lerik-Göydərə avtomobil yolunun Nisli kəndindən keçən hissəsinə sürərək meyiti yoldan aşağı istiqamətdə dağın ətəyinə yuvarlamasına əsaslı şübhələr müəyyən edilib.

Elşən Ağayevin yaşadığı evə keçirilən baxış zamanı evin həyətində yerləşən qarajın içərisindən "Makarov" tipli tapança, ona məxsus daraq və 159 ədəd patron, həmçinin avtomobilinə baxış keçirilərkən isə kiçik saxlanc yerindən 1 ədəd patron aşkar edilərək maddi sübut kimi götürülüb.

İş üzrə müvafiq prosessual hərəkətlər icra, eləcə də zəruri ekspertizalar təyin olunmaqla istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Faktla bağlı Lerik Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, Elşən Ağayev polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.



Bağlı qalmış cinayət işləri, o cümlədən itkin düşmüş şəxslərin axtarışları daim diqqət mərkəzində saxlanılmaqla onların tapılması, cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir.

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, qətldə şübhəli bilinən 34 yaşlı Elşən Ağabala oğlu Ağayev əvvəllər Lerik Rayon Gənclər və İdman İdarəsində çalışıb.



O, zabit kimi Vətən müharibəsində və daha sonra keçirilmiş antiterror tədbirlərində iştirak edib. Elə antiterror tədbirlərində snayper gülləsinə tuş gələn Elşən həmin vaxt hospitala yerləşdirilib. Onun psixologiyasının da pozulduğu və psixi müalicə aldığı bildirilib.

Digər məlumata görə, E.Ağayevlə Ş.Şərifov əvvəldən tanış olublar. Onların arasındakı münaqişənin hansı səbəbdən baş verməsi, atəşin harada açılması və digər detallar hələlik məlum deyil.

# "Şərurlu İsfəndiyar"la bağlı məhkəmə qərarı

## Məhkəmə işi üzrə linqvistik ekspertiza keçiriləcək

**"Şərur MTK"nın sahibi İsfəndiyar Axundovun ("Şərurlu İsfəndiyar") barəsində xüsusi ittiham qaydasında verilən şikayət üzrə növbəti məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, iyunun 5-də Binəqədi Rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə xüsusi ittihamçı Emil Səməndərovun vəkili Asim Abbasov bildirib ki, təqsirləndirilən İsfəndiyar Axundov təkcə Binəqədi Rayon Məhkəməsində 40-a yaxın iş üzrə cavabdeh şəxs qismində tanınıb.

Daha sonra xüsusi ittihamçı Emil Səməndərov ifadə verib.

O bildirib ki, 2018-ci ildə onun rəhbəri olduğu "Proqress 2016" MTK-da 141 zərərçəkənin, 3 milyon 100 min manat maddi zərərin olduğu bildirilib, sonradan məlum olub ki, 264 zərərçəkən, 7 milyon 900 min manat maddi zərər var: "Mən son göstərilən maddi ziyandan 5 milyon ödəmişəm. Halbuki bu işin mənə aidiyyəti yoxdur. Amma İsfəndiyar Axundov mənə dələduz deyib. Onun qanun çərçivəsində cəzalandırılmasını xahiş edirəm".



İsfəndiyar Axundov Emil Səməndərova cavab olaraq "Sənin atan və yoldaşın məni məhkəməyə verərək 5 milyon tələb edir", bildirib.

Emil Səməndərov bundan xəbəri olmadığını deyib.

Məhkəmə iş üzrə linqvistik ekspertizanın keçirilməsi ilə bağlı tərəflərin fikrini soruşub.

Vəkil Asim Abbasov ekspertizaya ehtiyac olmadığını, bunun məhkəmə prosesinin uzadılması ilə nəticələnəcəyini bildirib.

İsfəndiyar Axundovun vəkili Ülvi Nəsibli bildirib ki, sözügedən ekspertizaya ehtiyac yoxdur: "İsfəndiyar Axundov müsahibəsində Emil Səməndərova qarşı dələduz ifadəsini işlətməyib. Ekspertizanın keçirilməsinə ehtiyac yoxdur. Müvəkkilim tanınmış şəxsdir. Qarşı tərəf müəyyən təminatlar əldə etmək üçün onun barəsində xüsusi ittiham qaydasında şikayət edib".

Məhkəmə videonun linqvistik ekspertizaya verilməsi ilə bağlı qərar qəbul edib.

Məhkəmə qeyri-müəyyən vaxta təxirə salınıb.

Qeyd edək ki, İsfəndiyar Axundov barəsində Cinayət Məcəlləsinin 147.2-ci (böhtan) və 148-ci (təhqir) maddələri üzrə xüsusi ittiham qaydasında şikayət edilib. Xüsusi ittiham qaydasında "Proqress 2016" MTK-nın rəhbəri Emil Səməndərov şikayət edib. İttihama görə, İ.Axundov müsahibələrindən birində E.Səməndərovu dələduz kimi təqdim edib.

# Pensiyaçını öldürən tutuldu

**Gədəbəydə 74 yaşlı qadına qarşı törədilmiş zorakılıq və quldurluq cinayəti üzrə bir nəfər saxlanılıb. Bu barədə Baş Prokurorluq və Daxili İşlər Nazirliyi birgə bəyanat yayıb.**

Mayın 24-də Gədəbəy rayonu, Kəlaman kənd sakini, 1951-ci il təvəllüdlü qadının zorakılığa məruz qalması və ona qarşı quldurluq edilməsi faktı üzrə Gədəbəy Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

İbtidai istintaq zamanı hadisə yerinə ilkin və əlavə baxışlar keçirilib, zərərçəkmiş şəxs və çoxsaylı şahidlər dindirilib, məhkəmə-tibbi, məhkəmə-genetik, kompleks məhkəmə-daktiloskopik və məhkəmə-genetik ekspertizalar təyin olunub, sorğular verilib və digər zəruri istintaq və əməliyyat-axtarış hərəkətləri icra olunub.

Mayın 30-da, gecə saat 01 radələrində zərərçəkmiş şəxs müalicə aldığı xəstəxanada vəfat edib və iş üzrə komisyon məhkəmə-tibbi ekspertiza təyin olunub.

Prokurorluq və polis əməkdaşları tərəfindən cinayət əməlini törədən şəxsin müəyyən olunması istiqamətində aparılan intensiv və çoxsaylı tədbirlər nəticəsində iyunun 4-də 1993-cü il təvəllüdlü Nizaməddin Bayramov şübhəli şəxs qismində tutulub və vəkilinin iştirakı ilə dindirmə zamanı törətdiyi əməli etiraf edib.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

Bağlı qalmış cinayətlərin açılması Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin daim diqqətində saxlanılır və bu istiqamətdə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Həyatım üçün hələ də ciddi təhlükə var"



**Azərbaycan Muay Tay Federasiyasının prezidenti Araz Musayev Türkiyənin Antalya şəhərində müalicə aldığı xəstəxanadan yaxın günlərdə evə buraxılacaq.**

Araz Musayev bu barədə şəxsi sosial media hesabında paylaşım edib.

O bildirib ki, Antalyada keçirilmiş dünya çempionatı vaxtı Rusiyadan sifarişlə gətirilmiş şəxslər ona arxadan hücum ediblər, başına bir, qarın nahiyəsinə üç bıçaq zərbəsi vurublar.

A.Musayevin sözlərinə görə, həyatına hələ də ciddi təhlükə var və belə bir vəziyyətdə Azərbaycana qayıdacaq: "Azərbaycanda qanunlar sərt olduğundan edə bilmədilər, gəlib bunu qardaş ölkədə törətdilər. Hazırda Türkiyədə müalicə aldığım xəstəxananın palatasının qapısında 15-20 polis əməkdaşı dayanıb. Mənə sui-qəsddə şübhəli bilinən 7 nəfər tutulub. Mənim heç kimlə düşmənçiliyim, nifaqım yoxdur. İnanıram ki, bu hadisənin sifarişçisi də öz cəzasını alacaq".

Qeyd edək ki, Araz Musayev mayın 28-də Türkiyənin Antalya şəhərindəki U-23 dünya çempionatında bıçaqlanıb.

# Azərbaycanda vəzifəli şəxsə elektron qolbaq taxıldı



**Şəki Apelyasiya Məhkəməsində dələduzluqda təqsirləndirilən Qoşqar Babayevin barəsindəki hökmdən dövlət ittihamçısı tərəfindən verilən apelyasiya protesti üzrə məhkəmə iclası yekunlaşıb.**

Pravda.az xəbər verir ki, hakim Elçin Hüseynovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, apelyasiya protesti qismən təmin edilib, iş üzrə Balakən Rayon Məhkəməsinin qərarı ləğv edilib, yeni ittihamedici hökm çıxarılıb. Təqsirləndirilən şəxs 1 il müddətə azadlığın məhdudlaşdırılması (elektron qolbaq) cəzasına məhkum olunub.

İttihama görə, Qoşqar Babayev digər təqsirləndirilən şəxslə birgə 2021 və 2022-ci illərdə Balakən və Qəbələ rayon sakinlərini Fövqəladə Hallar Nazirliyinə işə düzəltmək vədləri verib. Onlar bu yolla həmin şəxslərdən ümumilikdə 28 min manat pul alaraq dələduzluq ediblər.

Balakən Rayon Məhkəməsinin hökmü ilə Qoşqar Babayev cinayət məsuliyyətindən azad edilib və onun həmin maddələrlə təqsirləndirilməsinə dair hissədə cinayət işi üzrə icraata xitam verilib. Digər təqsirləndirilən şəxs isə 3 il müddətə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilib. Həmin qərarından narazı qalan dövlət ittihamçısı apelyasiya protesti verimişdi.

Qeyd edək ki, Qoşqar Babayev Yasamal Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş şöbəsinin müdiri vəzifəsində işləyir.

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

# Kəndlərdə işıq-qaz 3 dəfə ucuzlaşsa...

## Dağlıq rayonlarda qaz istehlakının aşağı olmasının başqa bir səbəbi də digər regionlarla müqayisədə daha kasıb, işsizliyin daha yüksək olmasıdır...

**Azərbaycanda iqtisadi inkişaf baxımından regionların Bakı və Abşeron yarımadasından qat-qat geri qalması və bunun yaratdığı problemlər bir daha gündəmə gətirilib. Bu dəfə məsələni Milli Məclisdə İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qaldırıb. O, Bakı şəhərində getdikcə kəskinləşən nəqliyyat problemlərini regionlardan paytaxta olan miqrasiya ilə izah edib.**




Z.Orucun sözlərinə görə, paytaxtda yaşayan əhalinin sıxlığı, həmçinin avtomobil yollarındakı tıxac təkcə ictimai deyil, həm də iqtisad, sosial, mənəvi və əhalinin sağlamlığı üçün bir nömrəli məsələyə çevrilib. Komitə sədri bildirib ki, hökumət Bakının 2040-cı il üçün Baş planında demoqrafik vəziyyətlə bağlı göstərir ki, 15 ildən sonra paytaxtda əhalinin sayı 3,17 milyon nəfər olacaq, halbuki qeyri-rəsmi məlumatlara görə, həmin sayda əhali indi Bakıda yaşayır.

Z.Oruc müxtəlif sahələrdə qeydə alınan göstəricilərin ölkə əhalisinin üçdə birindən çoxunun paytaxtda cəmləşdiyini sübut etdiyini bildirib: "Ölkəmizdə ümumilikdə 2023-cü ildə əhali tərəfindən 3.9 milyard kubmetr, Bakı şəhərində isə əhali tərəfindən 1,4 milyard kubmetr qaz istehlak edilib. Yəni ölkə üzrə təbii qaz istehlakının 36 faizi paytaxtın payına düşür. Əhali tərəfindən ümumilikdə 6,6 milyard kv/saat, Bakı şəhərində isə 2,8 milyard kv/saat elektrik enerjisi istehlak edilib. Yəni ölkə üzrə elektrik enerjisi istehlakının 42 faizi paytaxtın payına düşür. Halbuki Bakıda rəsmi qeydiyyatda olan əhali ölkə əhalisinin 23 faizindən azdır.

Biz təklif edirik ki, əhalinin paytaxta axının qarşısı almaq, kəndlərə böyük qayıdışı təmin etmək üçün bütün sərhədyanı ərazilərdə elektrik və qaz tarifləri 3 dəfə azaldılsın. Üstəlik, Gədəbəy, Kürdəmir və Bakıda orta illik temperatur fərqli olduğu üçün 7 ay soyuq şəraitdə yaşayan əhali üçün qaz tariflərində diferensial tariflər tətbiq etməyin əsası var. Bunun nəticəsində hər hansı büdcə itkisi olmayacaq, əksinə, əhalinin geri dönüşü artdıqca, sıxlığın yaratdığı problemlər - mənzil, əmək və yollar, körpülər, keçidlərə qoyulan sərməyələri bölgələrə yönəltmək mümkün olacaq. Tarif siyasəti ilə yanaşı maaşlar və iş yerlərinin bölgələrdə açılmasına yönələn güzəştlər siyasəti ilə biz daxili miqrasiyanın yalnız bir istiqamətdə getməsinin qarşısı ala bilərik".

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə Bakı əhalisindən sonra ən çox təbii qaz istehlak edən Abşeron rayonunun əhalisi olub. Rayon əhalisi ümumilikdə 298,1 milyon kubmetr təbii qaz istifadə edib. Gəncə əhalisi tərəfindən 142,7 milyon kubmetr, Sumqayıt əhalisi tərəfindən 134,6 kubmetr təbii qaz istifadə olunub. Şəmkir rayonu 84,7 milyon kubmetr göstərici ilə 5-ci, Lənkəran rayonu isə 80,8 milyon kubmetr göstərici ilə 6-cı olub. Göründüyü kimi, ən yüksək qaz istehlak edən rayonların heç birində Bakının 20 faizindən çox istehlak qeydə alınmayıb. Ucqar dağ rayonlarında istehlak çox aşağıdır: 2023-cü ildə əhali Yardımlıda 4,1 milyon kubmetr, Daşkəsən rayonunda 5,2 milyon kubmetr və Xızıda 5,8 milyon kubmetr qaz yandırıb.

Qeyd edək ki, əhalinin regionlardan paytaxta axın etməsinin başlıca səbəbini komitə sədri doğru vurğulayıb. Burada ən mühüm səbəb, uzun illərdir müstəqil ekspertlərin də vurğuladığı kimi, bölgələrdə iş yerlərinin azlığı, gəlir imkanlarının məhdudluğudur. Ölkə üzrə muzdlu işçi kimi - yeni rəsmi əmək müqaviləsi ilə çalışan 1,7 milyon nəfərdən çox şəxsin 1 milyona yaxını Bakıda işləyir. Dövlət Statistika Komitəsinin rüblük məlumatına görə, 2025-ci ilin birinci rübünün sonunda Azərbaycanda fəaliyyət göstərən 216 138 sahibkarlıq subyektinin 143 434-ü - 66, 4 faizi Bakıdadır. Daha 14 190 sahibkarlıq subyekti Xızı-Abşeron iqtisadi rayonunda yerləşir. Qalan iqtisadi rayonlarda sahibkarlıq subyektlərinin sayı 8-7-6 min arasında dəyişir.

Dağlıq rayonlarında qaz istehlakının aşağı olmasının bir səbəbi qazlaşmanın aşağı səviyyəsidirsə, digər səbəb bu rayonlarda əhalinin digər regionlarla müqayisədə daha kasıb, işsizliyin daha yüksək olmasıdır. Vəziyyəti ölkə üzrə kredit qoyuluşlarının səviyyəsindən da müşahidə etmək mümkündür. Məlumdur ki, kredit bir qayda olaraq fiziki şəxslərə münasibətdə sabit gəliri - iş yeri və müntəzəm qazancı olanlara verilir. Biznes kreditləri isə aydındır ki, biznesin olduğu, inkişaf etdiyi yerlərdə daha yüksək olur. Bu baxımdan, ölkə üzrə kredit qoyuluşlarının paylanması regionların maliyyə imkanlarını müəyyən etməyə şərait yaradır. Mərkəzi Bankın açıqladığı statistikaya əsasən 2025-ci il may ayının 1-nə banklar tərəfindən ölkə üzrə verilmiş 23 milyard 832 milyon 240 min manatlıq kreditin 17 milyard 358 milyon 187 min manatı Bakının payına düşür. Daha 1 milyard 89 milyon 464 min manatı Xızı-Abşeron iqtisadi rayonuna verilib. Ölkə üzrə ən aşağı kredit faizi də Bakıdadır - 13,75 faiz. Bu, ölkə üzrə orta göstərici olan 14,95 faizdən aşağıdır. Cəmi 191 milyon 289 min manatlıq kredit verilmiş Dağlıq Şirvan iqtisadi rayonunda orta faiz 19,63, 426 milyon 110 min manatlıq kredit portfeli olan Şirvan-Salyan iqtisadi rayonunda 19,61 faiz, 489 milyon 788 min manat kredit almış Qarabağ iqtisadi rayonunda 19,47 faizdir.

Bu ilin yanvarın 1-nə Azərbaycanda regionlar üzrə cəlb olunmuş əmanətlər 14,7 milyard manat təşkil edib. Məlumata əsasən, ölkə üzrə cəlb olunmuş əmanətlərin ən çoxu - 12,9 milyard manatı Bakı iqtisadi rayonunun payına düşüb ki, əmanətlər üzrə orta faiz dərəcəsi 4,23 faizə bərabər olub. Dövr ərzində regionlar arasında bankda əmanəti olanların siyahısında Abşeron-Xızı iqtisadi rayonu ikincidir. Burada yaşayan əhalinin banklarda 6,06 faiz dərəcə ilə 525,9 milyon manat pulu var.

Siyahıda üçüncü yerdə isə 230,4 milyon manat əmanət cəlbi ilə Gəncə-Daşkəsən iqtisadi rayonu qərarlaşıb. Burada orta faiz dərəcəsi 6,15 faiz təşkil edib. Qalan regionlarda əmanətlərin həcmi çox aşağı məbləğlərlə ifadə olunur.

Bütün bunları nəzərə aldıqda, regionlarda iqtisadiyyatın dirçəldilməsinin əhali axınının qarşısının alınması baxımından əsas vasitə olduğunu söyləmək olar. Məlumdur ki, 2023-cü ildən etibarən hökumət işğaldan azad edilmiş ərazilərdəki iqtisadi fəaliyyətlə bağlı 10 illik güzəştlər tətbiq etməyə başlayıb. İşğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilib. Bununla yanaşı, işçilərin sosial ödənişlərinə güzəştlər və bu ərazilərdə çalışan işçilərə əlavə vəsaitlərin verilməsi də nəzərdə tutulur. Ekspertlərə görə, ölkənin digər ərazilərində də iqtisadi inkişaf baxımından ciddi problemlər olduğuna görə hökumətin bu güzəştlərinin əhatə dairəsinin və çeşidlərinin artırılmasına ehtiyac var. Özəlliklə güzəştli kredit imkanlarının həcminin artırılması diqqətə alınmalıdır. Regionlarda güzəştli imkanların yaradılması açılan yeni iş yerləri baxımından Bakı və digər ərazilərdəki kəskin fərqin azaldıması üçün çox vacibdir.

Regionlarda sahibkarlığın inkişafı baxımından tətbiq olunan güzəştlər, təşviq alətləri yetərli deyil. Bütün istiqamətlərdə regionlarda çalışan sahibkarlara əlavə dəstəklər, imtiyaz və güzəştlərin tətbiq olunması son dərəcə vacibdir. Xarici təcrübədə yalnız biznes fəaliyyəti ilə bağlı deyil, sosial ödənişlər baxımından da regionlar arasında fərqli yanaşma praktikasının tətbiqi var. Məsələn, Gürcüstanda pensiyaların məbləği yaşla yanaşı, həm də pensiya alan şəxsin yüksək dağlıq ərazidə yaşayıb-yaşamamasına görə fərqlənir. Bu baxımdan, Azərbaycanda da əlverişsiz coğrafi-iqtisadi ərazilərdə yaşayan şəxslərə təyin edilən sosial ödənişlərdə əlavə əmsalların tətbiq edilməsi həm həmin ərazilərdə yaşayan şəxslərin rifahının artırılmasına, həm də miqrasiya prosesinin qarşısının alınmasına töhfə verə bilər.

Komitə sədrinin qeyd etdiyi qaz-işıq qiymətlərində güzəştlərə gəlincə, Azərbaycanın "Azəri-Çıraq-Günəşli" neft yatağından əldə olunan səmt qazı pulsuz olaraq dövlətə verilir. 2024-cü ildə belə pulsuz verilən qazın həcmi 3,8 milyard kubmetr təşkil edib. Dağlıq rayonlarda əhalinin qaz istehlakı bu həcmin 35-40 faizindən də aşağıdır. Bu, həmin qaz hesabına dağlıq rayonların əhalisinə qazı yalnız nəql və şəbəkənin saxlanma xərcləri qiymətinə satılması mümkündür. Özünün təbii qazı olmayan Gürcüstan Azərbaycan qazını Türkiyə ərazisinə çatdıran qaz kəmərlərindən (Cənubi Qafqaz Boru Kəməri və TANAP) tranzit haqqı əvəzinə əldə olunan ucuz qiymətli qazın mühüm bir hissəsini dağlıq bölgələrdəki əhaliyə güzəştlə satır. Azərbaycanın bu təcrübədən yararlanması üçün daha çox imkanı var. Eyni güzəştləri yalnız qaz-işıq tariflərində deyil, rabitə, internet, su və digər sahələrdə tətbiq etmək, sahibkarlığa əlavə dəstək verməklə dövlət ortamüddətli dövrdə əhalinin regionlardan Bakıya köçünün qarşısını almağa və bununla da regionların iqtisadiyyatındakı canlanma hesabına gəlirlərini artırmağa nail ola bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ekologiya

YENİ MÜSAVAT
N 98 (8708) 6 iyun 2025

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Nəfəsimizi kəsən köhnə maşınlar

## Yararlılıq müddəti keçmiş avtomobillərdən necə xilas olmalı?

**Mütəxəssislər hesab edir ki, havanın çirklənməsinin ən təhlükəlisi və xoşagəlməyəni qaz, tüstü, duman və toz qarışığı olan smoqdur. Su buxarlarının kondensasiyası zamanı kiçik tüstü hissəcikləri ətrafında toplanmasından əmələ gələn smoq xüsusilə böyük sənaye şəhərlərində nəqliyyat vasitələrinin çox sıx olduğu ərazilər üçün xarakterikdir. Smoqun tərkibində olan ən zəhərli qaz avtomobillərin buraxdığı dəm qazı hesab olunur. Smoq zamanı havada zərərli maddələrin şiddətli konsentrasiyası yaranır ki, bu da bəzən ölümlə nəticələnir.**



Hava çirklənməsinin ən böyük səbəblərindən biri isə heç şübhəsiz ki, yararlılıq müddəti keçmiş avtomobillərdir. Dünyada baş verən qloballaşma prosesində iqtisadiyyatın keçid dövrünü yaşayan ölkəmizdəki avtomobillərin bir hissəsi MDB ölkələrində istehsal edilmiş avtomobillərdir. Bundan əlavə, 10 ildən artıqdır ki, ölkəyə xaricdən həmin ölkələrdə işləmə müddəti həddinə və ekoloji cəhətdən yararsızlığına görə istismarı qadağan edilmiş avtomobillər idxal edilir. Avtomobillərin modelləri bütün əsas göstəricilərinə görə (qənaətlilik, etibarlılıq, təhlükəsizlik, ekoloji yararlılıq) sənayesi inkişaf etmiş ölkələrdən 8-10 il geridə qalır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, dünyanın bir çox ölkələrində nəqliyyat vasitələrinin ətraf mühitə mənfi təsirinin azaldılması məqsədilə ekoloji cəhətdən təmiz və yanacaq sərfiyyatı az olan elektrik və hibrid avtomobillərinin maddi cəhətdən daha əlçatan olması üçün genişmiqyaslı strategiyalar həyata keçirilir, təşviqedici addımlar atılır. Dünya təcrübəsində təşviqedici addımlar kimi elektromobil alıcılarına, satıcılarına müxtəlif tipli güzəştlər tətbiq edilir, prioritetlər müəyyən olunur və maddi dəstək göstərilir. Təbii ki, belə təşviq çox vacibdir və yaxşı nəticələr verir. Dünyada 5,1 milyondan çox elektromobil və hibrid avtomobilindən istifadə olunur və bu avtomobillərin 80 faizi ABŞ, Çin, Yaponiya, Hollandiya və Norveç kimi ölkələrin payına düşür. Elektromobil avtomobillərdən ən çox istifadə edən Çində istifadəçilər yol vergisindən, satışı ilə məşğul olanlar isə satış vergisindən azaddırlar və bu avtomobillərin qeydiyyata alınması üçün rüsum da tələb olunmur. Elektriklə çalışan avtobusların əksəriyyəti də bu ölkənin payına düşür və onlar üçün ayrıca elektrikdoldurma məntəqələri fəaliyyət göstərir. Böyük Britaniyada isə elektromobil avtomobillər aksiz və yol vergilərindən azaddırlar, istehlakçılara müxtəlif güzəşt və maddi dəstək təklif edilir, genişmiqyaslı enerjidoldurma məntəqələri qurulub. Öz həyətlərində şarj məntəqəsi quraşdıran elektrik və hibrid avtomobil istifadəçiləri isə istifadə etdikləri elektrik enerjisinə görə 20 faiz əvəzinə 5 faiz vergi ödəyir. Türkiyədə də elektromobil sahiblərinə verilən güzəştlər çoxsaylıdır. Burada elektromobil istifadəçilərinə avtomobillərin mühərrik gücünə görə genişmiqyaslı güzəştli vergi dərəcəsi tətbiq olunur, çoxlu sayda şarj məntəqələri quraşdırılır və bu sahədə nəzərəçarpacaq irəliləyişlər əldə edilib. Elektromobillərin istifadəsinə dəstək vermək məqsədilə onların idxalçılarına və alıcılara dövlət tərəfindən subsidiyalar verilir. Norveç isə hər 1000 nəfərə düşən elektromobil sayına görə dünyada ən yüksək göstəriciyə malikdir. Burada istismar müddətinin bitməsinə az qalmış, havanı çirkləndirən nəqliyyat vasitələrinin istifadəsi qadağan edilir. 2025-ci ilədək isə ölkə ərazisində yanacaqla işləyən nəqliyyat vasitələrinin istifadəsinin tamamilə qadağan olunması planlaşdırılır. Dünya təcrübəsində elektromobillərlə bağlı tədbirlər dövlət-özəl qurumların əməkdaşlığı çərçivəsində həyata keçirilir. Ətraf mühitə daha az ziyan vuran elektrik və hibrid avtomobillərin istifadəsinin təşviqi, stimullaşdırılması ətraf mühitin qorunmasında vacib rol oynayır. Azərbaycanda da elektriklə çalışan avtomobillərin istifadəsinin genişləndirilməsi ölkənin ekoloji durumunu yaxşılaşdıra bilər.

Belə avtomobillərin istismarı nəticəsində yanacaq sərfi və atmosferə atılan zərərli maddələrin miqdarı artır. Bundan başqa, respublikada avtomobil parkının böyük əksəriyyətinin özəlləşməsi də, onun maddi-texniki bazasının zəifləməsi nəticəsində ətraf mühitə öz mənfi təsirini göstərmişdir.

Hazırda respublikada istismar edilən avtomobillərin üçdə iki hissəsinin Bakı şəhərində cəmləşdiyini nəzərə alsaq, ətraf mühitin mühafizəsi sahəsində qarşıda duran problemlərin nə dərəcədə aktual olduğu aydın olar. Ölkəmizdə avtomobillərdən xaric olunan qaz tullantılarının zəhərlilik hədlərini müəyyənləşdirən müasir ekoloji təhlükəsizlik standartları işlənib hazırlanmamışdır. Bu günədək ölkədə keçmiş SSRİ-nin 1987-ci il standartları qüvvədədir ki, bu standartlar da nəinki bu günə olan beynəlxalq tələblərə cavab vermir, hətta onlardan nəzərə çarpacaq dərəcədə geri qalır.

Dünya təcrübəsində köhnə avtomobillərin istifadəsinin qarşısının alınması üçün kompleks tədbirlər görülür. Xarici ölkələrdə belə maşınların şəhərin mərkəzinə daxil olmasına məhdudiyyət və ya qadağa qoyulur, belə nəqliyyat vasitələrinin alınması, texniki baxışı zamanı müəyyən vaxt və qiymət həddi qoyulur. Məsələn, təzə maşınlar 5 ildən bir, köhnə maşınlar hər il texniki baxışdan keçirilir. Digər tərəfdən, təzə avtomobilin rüsumu daha ucuz, köhnə maşınınkı yüksək olur. Ona görə də bu gün Azərbaycan reallıqları nəzərə alınmaqla müəyyən qərarlar qəbul edilməli, problemlərin həlli istiqamətində müzakirələr keçirilməlidir. İnsanlar maşın aldıqda iqtisadi amillərlə yanaşı, nəqliyyat vasitəsinin ekoloji göstəricilərini də nəzərə almalıdırlar.

Rəsmi statistik göstəricilərə əsasən, respublikada atmosfer havasına atılan çirkləndirici maddələrin 75 faizdən çoxu avtomobil nəqliyyatının və xüsusi texnikanın payına düşür. Aparılan monitorinqlər və hesablamalar nəticəsində müəyyən edilmişdir ki, ölkədə avtomobil nəqliyyatından atmosfer havasına il ərzində atılan təkcə karbon oksidlərinin miqdarı 700 min tona yaxındır. Müqayisə üçün bildirək ki, stasionar mənbələrdən atılan çirkləndiricilərin ümumi miqdarı 200 min tonu keçmir. Məlum olduğu kimi, Azərbaycan Respublikasında dövriyyəyə buraxılan (idxal və ölkədə istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avro-4 ekoloji normalarına uyğunlaşdırılması barədə Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 2 nömrəli Qərarı ilə 2014-cü il 1 aprel tarixindən ölkədə Avro-4 ekoloji normaları tətbiq edilir. Hazırda nəqliyyat vasitələrinin Azərbaycana idxalı, mənşə ölkəsindən asılı olaraq buraxılış ilinə görə (məsələn, ABŞ-da 2004-cü, Avropa İttifaqı ölkələrində 2005-ci, Koreyada 2006-cı ildən sonra istehsal olunmuş avtomobillər) həyata keçirilir. Lakin ölkəyə əvvəllər idxal olunan işlənmiş avtomobillərin böyük bir hissəsi, uzun müddət istismar olunduğundan faktiki olaraq müvafiq standarta cavab vermir. Belə avtomobillərin sayının artması ölkə ərazisində, xüsusilə Bakı şəhərində atmosfer havasının çirklənməsində əsas faktorlardan biridir. Avropa İttifaqına üzv ölkələrdə ekoloji baxımdan zərərli tullantılarının miqdarı daha çox olan dizel yanacağı ilə işləyən avtomaşınların dövriyyəsinin azaldılması və tədricən qadağan edilməsi istiqamətində işlər aparılır. Buraya dizel yanacağı ilə işləyən avtonəqliyyat vasitələrinin istehsalı və idxalının azaldılması ilə bərabər, onların günün müəyyən vaxtlarında bəzi ərazilərə girişinə məhdudiyyətlər qoyulması da daxildir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Qatarlar bayram günlərində belə işləyəcək

**"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) bütün strukturları Qurban bayramı günlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.**

"Azərbaycan Dəmir Yolları" QSC xəbər verir ki, hərəkətin təhlükəsizliyinin davamlı təmin edilməsi, yüklərin və sərnişinlərin mənzil başına vaxtında çatdırılması məqsədilə hərəkət vasitələrinə texniki baxış keçirilib, reyslər üzrə mütəmadi reydlər, yoxlamalar təşkil edilib.

Artan sərnişin tələbatı nəzərə alınaraq 6-9 iyun tarixlərində Bakı-Ağstafa-Bakı marşrutu üzrə 7 əlavə reys təyin edilib. Bu marşrut üzrə sürət qatarı 6-8 iyun tarixlərində saat 09:15-də Bakıdan Ağstafaya, 17:00-da Ağstafadan Bakıya yola düşəcək. 9 iyun tarixində isə qatar saat 15:00-da Ağstafadan Bakıya hərəkət edəcək.



Bakı-Ağstafa-Bakı xətti üzrə hərəkət edən sürətli qatarlar bayram günlərində də hər gün hər iki istiqamətdə ənənəvi qrafiklə fəaliyyətini davam etdirəcək.

Bakı-Qəbələ-Bakı marşrutu üzrə 6 və 9 iyun tarixlərində 4 əlavə reys təyin edilib. Bu marşrutlar üzrə qatarlar həmin günlərdə hər iki istiqamətdə hərəkətdə olacaq. Qatar Bakıdan Qəbələyə saat 07:30-da, Qəbələdən Bakıya isə 19:00-da yola düşəcək.

Qeyd edək ki, hazırda Bakı-Qəbələ-Bakı sürətli sərnişin qatarları həftənin həm şənbə, həm də bazar günləri hər iki istiqamətdə hərəkət edir, o cümlədən 7 və 8 iyun tarixlərində eyni qaydada fəaliyyət göstərəcək.

Bayram günlərində Bakı-Balakən-Bakı xətti üzrə tələbata uyğun olaraq vaqon sayı artırılıb. Qatar hər gün saat 23:50-də Bakıdan Balakənə, saat 22:00-da Balakəndən Bakıya hərəkət edəcək. Marşrut üzrə Şəki, Qax, Zaqatala və Balakən stansiyalarında, həmçinin dörd aralıq dayanacaqda sərnişinlərin düşüb-minməsi təmin edilir.

Qurban bayramı ilə əlaqədar istirahət günü elan edilmiş 6, 7 və 9 iyun tarixlərində Bakı-Sumqayıt-Bakı marşrutu üzrə qatarların hərəkəti həftənin şənbə gününün cədvəli əsasında təşkil ediləcək. 8 iyunda isə qatarlar ənənəvi bazar günü qrafiki ilə hərəkət edəcək.

Həmçinin ADY-nin 24/7 fəaliyyət göstərən 1822 Əlaqə mərkəzi də bayram günlərində gücləndirilmiş rejimdə çalışacaq.

YENİ MÜSAVAT
Son səhifə
N 98 (8708) 6 iyun 2025





## Yağlı qidalar niyə kişilərə daha çox zərər verir?

**Alimlər yağlı qidaların kişilər üçün niyə daha zərərli ola biləcəyini aydınlaşdırıblar.**

Publika.az xəbər verir ki, həddən artıq yağlı qidalar yemək kişilərin maddələr mübadiləsinə qadınlardan daha çox dağıdıcı təsir göstərə bilir.

Massaçusets Texnologiya İnstitutunun (MIT) alimləri belə qənaətə gəliblər. Araşdırmanın nəticələri "Molecular Cell" jurnalında dərc olunub. Bildirilib ki, buna səbəb yağların, şəkərlərin və zülalların emalı üçün cavabdeh olan fermentlərin fəaliyyətini tənzimləyən biokimyəvi mexanizm prosesidir.

Araşdırma zamanı siçanların qaraciyər hüceyrələrinin təhlili göstərib ki, yüksək yağlı pəhriz yüzlərlə belə fermentin fəaliyyətində ciddi pozuntulara səbəb olur. Eyni zamanda reaktiv oksigen növlərinin (həddindən artıq miqdarda hüceyrələrə zərər verən və iltihabı təşviq edən molekullar) sürətlə formalaşır. Yağlı qidalarla qidalanan siçanlarda bu dəyişikliklər fonunda insulinə həssaslığın azaldığı və bədən çəkisinin artdığı müşahidə edilib. Bundan əlavə, gəmiricilərin hüceyrələri orqanizmi zəhərli birləşmələrdən qoruyan kritik mexanizm olan redoks sistemindəki tarazlığı itirib.

Xüsusilə diqqətəlayiq məqam erkək siçanların dişilərə nisbətən daha həssas olması idi. Tədqiqatçıların fikrincə, dişilərin yağların emalı üçün alternativ yollara keçməyə və ciddi nəticələrdən qaçmağa imkan verən kompensasiya mexanizmləri var. Alimlər həmçinin müəyyən ediblər ki, pəhrizə antioksidantlar əlavə edildikdə, yağlı qidaların zərərli təsirləri xeyli zəifləyir.

Onlar bu araşdırmanın antioksidant terapiyadan istifadə etməklə metabolik pozğunluqların qarşısının alınması və müalicəsi üçün yeni perspektivlər açmasına ümid edirlər.

# Oturaq işdə çalışanları gözləyən yeni təhlükə...



**ABŞ mütəxəssislərinin oturaq iş ilə sidik sistemi xərçənginin inkişafı arasında əlaqə olduğunu bildiriblər. Onlar bu qənaətə 2000 nəfərin iştirak etdiyi eksperimentdən sonra gəliblər.**

Axar.az Medicina.az-a istinadən xəbər verir ki, alimlər iki minə yaxın könüllünün tibbi məlumatlarını təhlil edərək onların həyat tərzinin xüsusiyyətləri ilə müqayisə ediblər.

Onlar arasında böyrək xərçəngi, həmçinin sidik kisəsi xərçəngi diaqnozu qoyulmuş xəstələr olub. Sağlam könüllülər ayrı bir qrupa seçilib. Bütün iştirakçılar yenidən tibbi müayinələrdən və anketlərdən keçiblər.

Əldə edilən məlumatları tədqiq edən həkimlər böyrək və sidik kisəsində bədxassəli şişləri olan könüllülərin 70%-dən çoxunun oturaq işlə məşğul olduğunu və ümumiyyətlə, gün ərzində az hərəkət etdiyini müəyyən ediblər.

Sağlam könüllülər qrupu gündəlik həyatlarında daha yüksək fiziki aktivliyə malik idi.

Alimlər qeyd ediblər ki, böyrək və sidik kisəsi xərçənginin inkişafında əsas təhrikedici faktorun insanın kifayət qədər fiziki fəaliyyət göstərməməsi olduğunu tam əminliklə söyləmək hələ mümkün deyil.

Bu korrelyasiya (əgər varsa) digər tədqiqatlarla təsdiqlənməlidir. Buna baxmayaraq, mütəxəssislər insanlara mümkün təhlükəyə məruz qalmamağı və daha çox hərəkət etməyi tövsiyə edir.

# Uzunmüddətli susqunluğun təhlükəli nəticələri - həkimdən xəbərdarlıq



**Öz istəyi ilə uzun müddət danışmamaq insan beyninə mənfi təsir göstərə bilər. Oxu.Az-ın NEWS.ru-ya istinadla verdiyi məlumata görə, bu barədə rusiyalı patofizioloq Sergey Stepanov xəbərdarlıq edib. Mütəxəssisin sözlərinə görə, belə "susqunluq" beyində nitqə cavabdeh olan qabıq nahiyəsinin funksiyalarının zəifləməsinə səbəb olur: "Uzun müddət danışmamaq, beynin nitq funksiyasına cavabdeh olan qabıq hissəsinin fəaliyyətinin zəifləməsinə gətirib çıxarır. Bu zaman həmin nahiyədəki neyronlar arasındakı əlaqələr zəifləyir və insan əvvəlki kimi səlis danışmaqda çətinlik çəkir". Bununla belə, həkim qeyd edib ki, danışmağa yenidən başladıqda bu əlaqələr zamanla bərpa olunur və nitq normal vəziyyətinə qayıdır.**

## Bunları bilirsinizmi?

* İnsanlar bütün ömrü boyu 20 kiloqram toz udur.
* Kanadada Yerin cazibə qüvvəsi dünyanın digər əraziləri ilə müqayisə də daha azdır. Bu səbədən Kanadalılar özlərini tərəzidə çəkərkən öz normal çəkilərindən az çıxırlar.
* Hindistanda bığ saxlayan polislər daha ciddi göründükləri üçün digər polislərdən 5% çox maaş alırlar.
* İnsan bədənindəki damarlarln uzunluğu təxminən 96 min kilometrdir.
* 1 kq kökəlmək üçün bədənimiz 20 km yeni damar əmələ gətirir.
* Dünya da ən uzun hakimiyyətfə qalmış sülalə Osmanlı sülaləsidir. (623 il)
* Qarışqa yuvalarının girişi hər zaman şimala tərəf olur.
* Vaxtının çoxunu musuqi dinləyərək keçirən insanlar daha çox depresif insanlar olurlar.
* Shakespeare 23 apreldə doğulmuş və 23 apreldə vəfat etmişdir.
* Norveçin şimalında hər yay 14 həfə gecə-gündüz günəşli keçir.
* Timsahlar dillərini çölə çıxara bilmirlər.
* Fransızlar ən nəzakətli xalq sayılır. Bir yazıçı bunu sübut etmək üçün yazır:"Bu yaxınlarda Parisin köhnə bir qəbiristanlığında üzərində yazılar olan bir başdaşı tapdım. Orada yazılmışdır: "Mənim istirahət yerimə yaxınlaşanda ayağa qalxıb sizi salamlamadığım üçün üzr istəyirəm".
* Ağcaqanadların 47 ədəd dişi olur.
* Almaniyadakı zooparkların birində "Dünyanın ən təhlükəli heyvanı" zalı vardır. İçəri daxil olduqda qarşınıza nəhəng bir güzgü çıxır.
* Xoşbəxtliyin ən böyük düşməni düşünməkdir. Elm sübut etmişdir ki, az düşünən insanlar daha xoşbəxtdirlər.

## Nəm salfetlərdəki böyük təhlükə - dermatoloq xəbərdarlıq etdi



**Son illərdə səth təmizləyici, ətirli və sirkəli kimi növlərdə istehsal olunan nəm salfetlər dəri xəstəliklərinə səbəb ola bilər.**

Oxu.Az xəbər verir ki, bu barədə "Haber Global"a danışan türkiyəli mütəxəssis Malatya Turqut Özal Universiteti Tibb Fakültəsinin Dermatologiya kafedrasının müəllimi Bülənt Nuri Kalaycı məlumat verib.

Onun sözlərinə görə, hazırda nəm salfetlər hər sahədə və gigiyenik vasitə kimi istifadə olunsa da, tez-tez istifadəsi dəriyə ciddi ziyan vura bilər. Bu, xüsusilə körpələrə, kiçik uşaqlara, yaşlılara və həssas dəriyə malik insanlara mənfi təsir göstərir.

"Onların tərkibində bəzi kimyəvi maddələr var ki, bunlar arasında spirt, paraben kimi qoruyucu maddələr, ətir komponentləri və müxtəlif dezinfeksiyaedici maddələr yer alır. Bu cür məhsullar dərini qurutmaqla yanaşı, zədələyə də bilər. Əgər insan bu maddələrə qarşı həssasdırsa, bu zaman allergik dermatit deyilən vəziyyət yarana bilər ki, bu da dəridə qızartı, qaşınma, suluqlu və qabıqlı yaralar şəklində özünü göstərir", - deyə dermatoloq bildirib.

Kalaycı əlavə edib ki, dermatoloji cəhətdən sınaqdan keçirilmiş məhsullara üstünlük verilməlidir. Dəri baryerini qorumaq üçün pH dəyəri 4.5-5.5 olan məhsullar seçilməlidir. Tərkibində spirt, paraben və ətir olmayan, xüsusilə körpələr üçün təmiz su və pambıqdan hazırlanmış nəm salfetlər daha məqsədəuyğundur.

"Əgər dəridə hər hansı problem müşahidə edilirsə, nəm salfetlərdən istifadə dərhal dayandırılmalı və zəruri hallarda həkimə müraciət olunmalıdır. Nəm salfetlər gündəlik təmizlik vasitəsi deyil, yalnız təcili vəziyyətlərdə alternativ olaraq istifadə edilməlidir. Onlar sabun və suyun yerini əsla verə bilməz. Gündəlik gigiyena üçün sabun və sudan istifadə edilməlidir", - deyə mütəxəssis vurğulayıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500